# Koronadan ölənlər 27 nəfər oldu

Son sutkada yoluxanların sayı isə 2124 nəfərdir



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2124 yeni yoluxma faktı qeydə alınıb, 2669 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 27 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 568 089 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 530 774 nəfər müalicə olunaraq sağalıb, 7551 nəfər vəfat edib, aktiv xəstə sayı 29 764 nəfərdir.

# Mingəçevirdə 15 yaşlı yeniyetmə güllələnib



**Mingəçevirdə güllələnmə hadisəsi qeydə alınıb.**

APA-nın yerli müxbirinin xəbərinə görə, hadisə məcburi köçkünlərin məskunlaşdığı Yeni Həyat qəsəbəsində baş verib. Ağdam rayon Gülablı kənd sakini Qasımov Əlvan Nuxa oğlu uşaqlar arasında baş verən münaqişə zəminində Xankəndi şəhər, Kərkicahan qəsəbə sakini, 2006-cı il təvəllüdlü Kərimov Orxan Tofiq oğlunu odlu silahla güllələyib. Güllələnən O.Kərimov xəstəxanaya aparılarkən yolda həyatını itirib.

Hadisəni törətməkdə şübhəli bilinən şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.


❒ № 211 (5493), 2021-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 noyabr 2021-ci il (cümə)


# Payız tətilinin ləğvi səhv qərardır



Bu qərarı verənlərin pedaqoji təhsil anlayışı yoxdur

**"Təhsil Nazirliyi pedaqogikaya zidd, yanlış qərarlar verməkdə davam edir. Ümumtəhsil məktəblərində dərslərin gec başlanması da yanlış qərar idi, payız tətilinin ləğvi qərarı da". Bu sözləri "Şərq"ə açıqlamasında təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov deyib. Ekspert bildirib ki, payız tətilinin ləğvi çox ciddi yanlışlıqdır:**

- Belə görünür ki, bu qərarı verənlərin pedaqoji təhsil anlayışı yoxdur. Şagirdlərin payız tətilini ləğv etmək ilk növbədə onların konstitusion hüquqlarını pozmaqdır. Uşaqların Konstitusiyaya ilə təsbit edilmiş hüquqları var. Bu hüquq pozulub. Dərslərin gec və ya tez başlanmasının tətillərə heç bir aidiyyəti olmamalıdır.

(səh.4)



# Regiondakı vəziyyət diqqət mərkəzindədir

Ceyhun Bayramov və ATƏT-in fəaliyyətdə olan sədri arasında telefon danışığı olub

**ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri Ann Linde və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov arasında telefon danışığı olub.**

Trend-in məlumatına görə, bu barədə Ann Linde "Twitter" səhifəsində paylaşım edib.

Onun sözlərinə görə, danışıq zamanı regiondakı vəziyyət müzakirə olunub.

# Türkiyə Prezidentinə təşəkkür edildi

Ərdoğan 8 ildən sonra ilk dəfə İsrailin baş naziri ilə telefonla danışıb



**İsrailin Baş naziri Naftali Bennet Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışıb.**

"Report" xəbər verir ki, bu barədə "Jerusalem" Post məlumat yayıb.

Məlumata görə, bu, İsrail hökumətinin başçısı ilə Türkiyə lideri arasında 2013-cü ildən bugünədək ilk telefon danışığıdır.

Qeyd olunur ki, Bennet ötən həftə Türkiyə Prezidentinin iqamətgahını çəkdiyinə görə İstanbulda həbs edilən israilliləri Natali və Mordi Okninin azad edilməsində göstərdiyi səylərə görə Ərdoğana təşəkkür edib.

Baş nazir, həmçinin Türkiyə və İsrail tərəfləri arasında humanitar məsələlərdə əməkdaşlıq səviyyəsini müsbət qiymətləndirib və əlavə edib ki, bu əməkdaşlıq öz səmərəliliyi ilə seçilir.

# ABŞ-dan Bakıya zəng gəldi

Putin də Ermənistan-Azərbaycan sərhədində baş verənlərə münasibət bildirib



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Karen Donfrid Azərbaycan və Ermənistan sərhədində yaşanan gərginlikdən narahatlığını ifadə edib, hər iki tərəfi deeskalasiyaya və fikir ayrılıqlarını sülh yolu ilə həll etməyə çağırıb.

C.Bayramov son günlərdə Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilən silsilə təxribatçı addımlar barədə qarşı tərəfə ətraflı məlumat verib. Nazir bölgədə vəziyyətin gərginləşməsi məsuliyyətinin bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb.

Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd olunub.

Telefon danışığı zamanı tərəflər, həmçinin üçtərəfli bəyanatların icrası və digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

*Dünən Rusiya prezidenti Vladimir Putin Rusiya Xarici İşlər Nazirliyinin kollegiya iclasında Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələrə münasibət bildirib:*

"Bir il öncə Rusiyanın aktiv vasitəçilik səyləri nəticəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Lakin Ermənistan-Azərbaycan sərhədində baş verən atışmalar regiondakı vəziyyətin hələ də sona qədər sakitləşmədiyini göstərdi".

(səh.2)



# Vaxt məlum olub

Milli Məclisin növbəti iclasları noyabrın 23-ü və 24-də keçiriləcək

**Gələn həftə Milli Məclisin payız sessiyasının növbəti iki iclası keçiriləcək.**

Parlamentin növbəti iclasları noyabrın 23-ü və 24-də keçiriləcək.

İclaslarda 2022-ci ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin, Vergi Məcəlləsinə dəyişikliklərin və digər məsələlərin müzakirəsi davam etdiriləcək.

*Qeyd edək ki, Milli Məclisin 16, 17 noyabr tarixlərində iclaslar keçirilib və gündəliyə 24 məsələ daxil edilib. Həmin iclaslarda nəzərdə tutulan bütün məsələlərə baxılıb və bir çox məsələlər, o cümlədən "2022-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.*

# Vətəndaşlar 60 yaşda pensiyaya çıxa biləcəklər



Millət vəkilinin təklifi əsasında nazirlikdə artıq müzakirə aparılır

**"Milli Məclisdə büdcə müzakirələri zamanı irəli sürdüyüm təkliflərdən biri də vətəndaşlara vaxtından əvvəl pensiya çıxmaq hüququnun verilməsi idi".**

Bu barədə millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov deyib. Deputat bildirib ki, bir sıra hallarda vətəndaşlar kifayət qədər yüksək əmək haqqısı olan sektorda çalışır və nisbətən böyük pensiya kapitalına malik olurlar.

(səh.4)

# 18 yaşlı şəhidimiz torpağa tapşırıldı



**Noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Xəlilov Murad Qalib oğlu dəfn edilib.**

Sputnik Azərbaycan-ın bölgə müxbirinin məlumatına görə, 2003-cü il təvəllüdlü Murad Xəlilov doğulduğu Şəmkir rayon Çinarlı qəsəbəsinin Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin yaxınları ilə yanaşı, ictimaiyyət nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, qazilər və sakinlər iştirak ediblər.

# Şəhid Orxan Cabbarovla vida mərasimi olub



**Noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu gizir Orxan Cabbarov dəfn edilib.**

Sputnik Azərbaycan-ın bölgə müxbiri bildirir ki, 1994-cü il təvəllüdlü gizir Cabbarov Orxan Hətəm oğlu Qubanın Şəhidlər xiyabanında torpağa tapşırılıb. Yaylım atəşi açılıb, Azərbaycanın dövlət bayrağı şəhidin atasına təqdim olunub.

*O.Cabbarov Vətən müharibəsində Cəbrayıl və Füzuli cəbhələrində qəhrəmanlıqla döyüşüb. Göstərdiyi şücaətə görə 4 medalla təltif olunub.*



# "Rusiya müdaxilə etməyəcək, Ermənistana görə döyüşməyəcək"

Maksim Şevçenko: "Müharibə başlayacağı təqdirdə Ermənistan Zəngəzuru da itirə bilər"

(səh.2)

# Muradov yenidən səhnəyə qaytarıldı

Rusiyanın vasitəçiliyi heç vaxt ölkəmizin xeyrinə olmayıb



(səh.3)

# ABŞ-dan Bakıya zəng gəldi

Putin də Ermənistan-Azərbaycan sərhədində baş verənlərə münasibət bildirib






**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Karen Donfrid Azərbaycan və Ermənistan sərhədində yaşanan gərginlikdən narahatlığını ifadə edib, hər iki tərəfi deeskalasiyaya və fikir ayrılıqlarını sülh yolu ilə həll etməyə çağırıb.

C.Bayramov son günlərdə Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilən silsilə təxribatçı addımlar barədə qarşı tərəfə ətraflı məlumat verib. Nazir bölgədə vəziyyətin gərginləşməsi məsuliyyətinin bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb.

Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd olunub.

Telefon danışığı zamanı tərəflər, həmçinin üçtərəfli bəyanatların icrası və digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

*Dünən Rusiya prezidenti Vladimir Putin Rusiya Xarici İşlər Nazirliyinin kollegiya iclasında Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələrə münasibət bildirib:*

"Bir il öncə Rusiyanın aktiv vasitəçilik səyləri nəticəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Lakin Ermənistan-Azərbaycan sərhədində baş verən atışmalar regiondakı vəziyyətin hələ də sona qədər sakitləşmədiyini göstərdi".

Rusiya lideri qeyd edib ki, sabitliyi təmin etmək, atəşkəs rejiminin və dinc sakinlərin təhlükəsizliyinin zəmanətçisi kimi Rusiya sülhməramlı kontingentinin səylərinə tələbat var.

Onun sözlərinə görə, şübhəsiz Azərbaycanla Ermənistan arasında mübahisəli məsələlərin həllində Rusiya diplomatiyasının rolu artır. (apa)

*V. Putin xatırladıb ki, Cənubi Qafqazda iqtisadi əlaqələrin bərpa olunması, həyati əhəmiyyətli nəqliyyat dəhlizlərinin açılması ilə bağlı Baş nazirlərin müavinləri səviyyəsində dövlətlərarası müvafiq komissiya yaradılıb:* "Bu komissiya işləyir. Fikrimcə, bu komissiyanın işinin perspektivləri pis deyil. Həqiqətən, Rusiya daxil olmaqla regionun bütün ölkələri, bu problemlərin uzunmüddətli həllində maraqlıdırlar".

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerdenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən "Şərq"ə verilən məlumata görə, görüşdə gələn il



# Yeni Saziş imzalanıb

Dünya Bankının azad edilmiş ərazilərin bərpasında iştirakı müzakirə edilib

Azərbaycan ilə Dünya Bankı arasında tərəfdaşlığın qurulmasının 30 illiyinin qeyd olunacağı bildirilərək ötən müddət ərzində müxtəlif istiqamətlərdə birgə uğurlu layihələrin həyata keçirildiyi qeyd olunub.

Baş nazir Ə.Əsədov Azərbaycanın Dünya Bankı ilə əməkdaşlıqdan məmnun olduğunu və əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.

Anna Byerden bildirib ki, ötən illər ərzində Azərbaycan aşağı gəlirli ölkədən yüksək gəlirli donor ölkəyə çevrilib. O, habelə Azərbaycanda peyvəndlənmənin yaxşı səviyyəyə malik olduğunu qeyd edərək bu sahədə fəaliyyətin uğurlu olduğunu deyib. A.Byerden 2021-ci ildə Azərbaycan iqtisadiyyatında artımın müşahidə olunmasının da yaxşı göstərici olduğunu vurğulayıb.

Görüşdə Dünya Bankının hazırlanmaqda olan Azərbaycana dair yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədi, Bankın Azərbaycanın "2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsində və işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, Dünya Bankının və onun strukturuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanın özəl sektoru ilə əməkdaşlığının genişləndirilməsi, həmçinin Bank ilə ölkəmiz arasında kənd təsərrüfatı, rəqəmsal inkişaf, bərpa olunan enerji mənbələri və bir çox digər sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

*Sonda Azərbaycan Respublikasında ofislərin qurulması və fəaliyyətinə dair Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında yeni Saziş imzalanıb. Sazişi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerde imzalayıblar.*



## ABŞ narahatdır

"Putin bu ordunu niyə toplayıb, bilmirik"

**Rusiya qoşunlarının Ukrayna sərhədinə yerləşdirilməsi ilə bağlı Kremlin hədəflərindən xəbərsizik. Axar.az xəbər verir ki, bu barədə Pentaqon rəhbəri Lloyd Ostin deyib.**

"Biz situasiyanı diqqətlə izləyirik. Lakin Rusiya Prezidenti Vladimir Putinin hansı hədəflərinin olduğunu bilmirik. Sərhəddəki bu addımlar sözsüz ki, bizim diqqətimizi çəkir. Rusiyaya bu addımlarında şəffaf olmağı və Minsk razılaşmasını yerinə yetirməyə çağırıram", - deyə Ostin bildirib.

## Gürcüstan müxalifəti bu gün yenə meydana toplaşır

"Kimlər Saakaşvilinin öldürülməməli olduğuna inanırsa, gözələyəcəyik"

**"Vahid Milli Hərəkat" Partiyası və tərəfdarları bu gün saat 15:00-da Respublika meydanında etiraz aksiyası keçirəcək.**

24News.ge xəbər verir ki, bu barədə partiya lideri Nika Melia açıqlama verib.

Onun sözlərinə görə, bu gün üç yerdə keçiriləcək yürüş-mitinq ləğv olunub:

"Biz sabah üç fərqli yerdə keçirəcəyimiz aksiyanı ləğv edirik. Kimlər ki, aclığın aclıq olduğuna, bütün bu proseslərin başından sonunadək Rusiyanın xüsusi xidmət orqanlarının planı olduğuna və ölkənin üçüncü prezidenti Mixeil Saakaşvilinin öldürülməməli olduğuna inanırsa, bu gün saat 3-də Respublika meydanında sizi gözələyəcəyik", - deyə N. Melia bildirib.

# "Rusiya müdaxilə etməyəcək, Ermənistana görə döyüşməyəcək"

**Müharibə başlayacağı təqdirdə Ermənistan Zəngəzuru da itirə bilər.**

**Bunu Trend-ə rusiyalı politoloq, teleaparıcı və ictimai xadim Maksim Şevçenko Ermənistanın Azərbaycanla sərhəddə təxribatçı addımlarını şərh edərkən deyib.**

"Bu qarşıdurmalar 2020-ci il müharibəsindən sonrakı siyasi prosesin başa çatmamasının nəticəsidir. Mən əminəm ki, erməni cəmiyyətinin daxilində revanş arzusu, məğlubiyyət acısı və qalib onları xilas edəcək xarici müttəfiq arzusu var. Nasist Almaniyası məğlub olmağa başlayanda, artıq 1943-cü ildə onların müqəddəratı həll olunmuşdu. Amma yenə də onlar sonadək ümid edirdi ki, Stalinlə Ruzveltin arası dəyəcək, hansısa möcüzə silah peyda olacaq. Təxribatçılara müqavimət göstərmək lazımdır, amma eyni zamanda sülh prosesi yolu ilə addımlamaq, o cümlədən erməni cəmiyyətinə bu yolu getməkdə kömək etmək də lazımdır", - deyə M.Şevçenko bildirib.

*O hesab edir ki, Ermənistan müharibə başlayacağı təqdirdə çox şey itirə bilər.*

"Azərbaycan bu iki gündə açıq şəkildə göstərdi ki, erməni tərəfinin "hay-küyü" Ermənistanın Zəngəzuru itirə biləcəyinə də gətirib çıxara bilər. Ermənistan hesab edir ki, Rusiya Azərbaycanın üzərinə gedəcək. Bu, sadəlövh hesabdır. Bu, həm də cinayətkar hesabdır, belə ki, Rusiyanı regiondakı maraqların daxilinə cəlb edir. Rusiya müdaxilə etməyəcək, Ermənistana görə döyüşməyəcək", - politoloq vurğulayıb.

**Bundan başqa, M.Şevçenko Ermənistan tərəfin guya Rusiya ilə Türkiyə arasında qarşıdurmanın qaçılmazlığı barədə bəyanatları da şərh edib.**

"Erməni tərəfi daim deyir ki, Rusiya ilə Türkiyə arasında qarşıdurma qaçılmazdır. Mən belə hesab etmirəm. Biz tam normal əməkdaşlıq görürük. Biz prezident Putinlə prezident Ərdoğanın görüşlərini, telefon danışıqlarını görürük. Rusiya Türkiyədə böyük atom elektrik stansiyası tikir, Türkiyəyə Rusiyanın ən müasir silah sistemlərinin satışı ilə bağlı danışıqlar aparılır. Ona görə də bunlar təhlükəli illüziyalardır və bir neçə gün əvvəl Daşaltı kəndində qeydə alınmış terror-təxribat əməllərinə gətirib çıxara bilər. Siyasətdə illüziyadan təhlükəli heç nə yoxdur", - deyə o, fikrini tamamlayıb.



Maksim Şevçen-

# Pərdəarxası ciddi mübarizə gedir

Təkcə Rusiya deyil, eyni zamanda Fransa və ABŞ da regionda qalmağın yolu kimi münaqişənin davamını istəyirlər



"Böyük ehtimalla yaxın vaxtlarda İlham Əliyev və Paşinyan arasında görüş keçiriləcək"

**"Ermənistan-Azərbaycan sərhəddində baş verən proseslər və pozulan atəşkəs bir neçə versiyanı ortaya qoymağa imkan yaradır".**

*Bunu "Şərq"ə "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib.* Analitik bildirib ki, Rusiya prosesin "sülhməramlılar"a aidiyyatı olmadığını göstərməyə çalışır. Onun sözlərinə görə, Moskva sərhəddə yaranmış təxribatların səbəbini "rus əsgərinin orada olmaması" ilə izah etməyə çalışır: "Kreml Ermənistan hakimiyyətinin xalqa aid olmadığını və ona görə də hakimiyyətdaxili ziddiyyətlərin çox olduğunu göstərir. Təkcə Rusiya deyil, eyni zamanda Fransa və ABŞ da regionda qalmağın yolu kimi münaqişənin davamını istəyirlər. Ermənistan üzərində nüfuzunu artırmaq məqsədi ilə Rusiya, ABŞ və Fransa arasında ciddi pərdəarxası mübarizənin getdiyi görünməkdədir. Təbii ki, mövcud Ermənistan hökuməti siyasi idarəçilik təcrübəsi az olduğu üçün hadisələrə nəzarəti əlində saxlaya bilmir. Ona görə də hakimiyyət daxilində digər güc mərkəzlərini təmsil edən qüvvələr Ermənistanın Azərbaycanla münasibətlərini normallaşdırmasına icazə vermək istəmirlər. Amma görünən odur ki, Paşinyan artıq ölkədəki vəziyyətin nə dərəcədə təhlükəli həddə çatdığını anlamağa başlayıb. Digər tərəfdən isə Paşinyan başa düşür ki, Rusiya onu hakimiyyətdən salmaq üçün bütün imkanlarını səfərbər edib. Ona görə də danışıqlar masasına oturmağın vaxtının çoxdan çatdığını yaxşı anlayır".

**Siyasi şərhçi yaxın vaxtlarda Ermənistan-Azərbaycan arasında danışıqların başlayacağını ehtimal edir:** "Hətta böyük ehtimal var ki, yaxın vaxtlarda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi mümkün olsun. Dövlət başçıları arasında görüşün Moskvada deyil, başqa yerdə keçrilməsi də ağlabatandır. Sonrakı proseslərdə Türkiyənin də iştirakı və daha çox aktivlik göstərməsi daha məqsədəuyğun olardı".

**İsmayıl**

**Azərbaycan-Ermənistan sərhədindəki 8 saatlıq döyüşdən sonra region ölkələrinin siyasi gündəliyi açıqlanıb. Rəsmi Bakı açıq mesaj verdi ki, sərhəddə gərginliyin sona çatmasının yolu delimitasiyadan keçir. Xarici işlər naziri Ceyhun Bayramov "Anadolu" agentliyinə açıqlamasında bildirib ki, sərhəd probleminin həll edilməsi üçün Ermənistanla Azərbaycan arasında birgə komissiya yaratmaq və sərhədlərin delimitasiya və demarkasiyasına başlamaq lazımdır: "Düşünürəm ki, bu prosesin başlaması ilə bu gərginlik də sona çatar".**



# Ankara Qarabağ məsələsində qətiyyətli mövqeyindən çəkilməyəcək

Görünən odur ki, bölgədə üç əsas oyunçunun gündəliyi eynidir

Qardaş Türkiyə rəsmiləri də Ermənistanın təxribatlarını kəskin qınayaraq, hər şəraitdə Azərbaycanın yanında olduqlarını bəyan ediblər. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu vurğulayıb ki, Azərbaycan öz qətiyyətini, türkün gücünü təkrar göstərdi: "Biz əvvəl də demişdik, indi də deyirik: - Azərbaycan tək deyil, tək olmayacaq. Çünki Azərbaycan heç vaxt bizi tək qoymayıb.

Türkiyənin Milli müdafiə naziri Hulusi Akar da qeyd edib ki, Ankara Qafqazın sabitliyinə əhəmiyyət verir: "Can Qardaşımız Azərbaycan "Tək Vətən" hərəkatı ilə torpaqlarını işğaldan azad edib. Türkiyə müharibə vaxtı olduğu kimi, bundan sonra da bütün imkanları ilə qardaşlarının yanında olmağa davam edəcək".

Rəsmi Ankara İrəvana çıxış yolunun Bakı ilə razılaşmaq olduğu mesajını verdi. Bundan sonra Moskva da sərhədlərin müəyyənləşməsinin vacibliyini gündəmə gətirdi. Rusiya XİN bildirdi ki, son hadisələr Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası, daha sonra da demarkasiyası ilə bağlı işlərə ən tez zamanda başlamağın, aidiyyəti komissiyanın işə başlamasının vacibliyini göstərir. Yəni bölgədə üç əsas oyunçunun gündəliyi eynidir. İrəvanın əks mövqeyi isə "məcburetmə əməliyyatının" davam etməsi deməkdir.

"Moskva sərhəd məsələsinin çözülməsində Ankaranın rol oynamasına qarşı çıxmır. Hətta bununla bağlı tərəflər arasında müəyyən razılaşmanın olduğu deyilir"

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Türkiyədən ilk reaksiya Müdafiə naziri Hulusi Akardan, daha sonra isə XİN başçısı Mövlud Çavuşoğlundan gəldi. Analitikə görə, Türkiyə tərəfi faktiki olaraq Azərbaycanın yanında olduğunu bəyan etdi və Ermənistanı təxribatlara görə sərt qınadı:** "Yəni qardaş Türkiyə hərbi və siyasi baxımdan öz mövqeyini ortaya qoydu. Lakin anlamaq lazımdır ki, Türkiyə birbaşa Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi prosesində iştirak etmir. Bu məsələdə əsas iştirakçı Rusiyadır. Amma Moskva sərhəd məsələsinin çözülməsində Ankaranın rol oynamasına qarşı çıxmır. Hətta bununla bağlı tərəflər arasında müəyyən razılaşmanın olduğu deyilir. Çünki regionun əsas iki gücünün- Rusiya və Türkiyənin məqsədi bölgədə kommunikasiyaların açılmasıdır. Hər iki ölkə "3+3" formatında maraqlı olduqlarını ortaya qoyublar. İstənilən halda Türkiyənin bu və ya digər formada regiondakı proseslərdə yer alması Bakının əlini gücləndirir. Kremlin Azərbaycanın üzərinə gəlməməsinin əsas səbəblərindən biri Ankaranın qətiyyətli mövqeyidir. Türkiyənin bölgə ilə bağlı əsas planı isə Azərbaycanın irəli sürdüyü tələblərin qeyd-şərtsiz yerinə yetirməsidir. Ankara regionda baş verənləri diqqətlə izləyir və zəruri dəstəyini verir. Bu da bizim üçün çox önəmlidir".

**İsmayıl Qocayev**

# Paşinyan Rusiyanın təklifinə razılıq verib

## Kreml sərhəddə baş verən qanlı hadisəni xeyrinə dəyişmək istəyir



**Ermənistanın baş naziri Nikol Paşinyan dünən hökumətin iclasında bildirib ki, Rusiya Müdafiə Nazirliyi (MN) Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiya və demarkasiyası ilə bağlı təkliflərlə çıxış edib.**

Onun sözlərinə görə, rəsmi İrəvan Bakı ilə delimitasiya və demarkasiyanın hazırlıq mərhələsinə dair Rusiya MN-in təkliflərinə razılıq verib. Baş nazir vurğulayıb ki, Rusiya MN ötən gün onun açıqlamasından sonra öz təkliflərini irəli sürüb: "Mən təsdiqləmək istərdim ki, bu təkliflər bizim üçün münasibdir".

Paşinyan müdafiə naziri Suren Papikyana rusiyalı həmkarı ilə bu təklifləri reallaşdırmaq üçün təfsilatları dəqiqləşdirməyi tapşırıb. Baş nazir 2021-ci ilin may ayından sonra Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiya və demarkasiyası ilə bağlı üç təklifin edildiyini xatırladıb. Politoloqlara görə, Paşinyanın sonuncu açıqlaması Azərbaycan Ordusunun sərhəddə keçirdiyi döyüş əməliyyatının nəticə verdiyini göstərir. Burada diqqətçəkən məqam Rusiya MN-nin Paşinyanın çıxışından sonra İrəvana hazırlıq mərhələsi ilə bağlı təklifi təqdim etməsidir. Ehtimala görə, Moskva İrəvana "Qarabağ məsələsi"nin sonraya saxlanıldığı və hazırki prioritetin sərhəd olduğunu başa salıb. Hazırdsa sərhədin müəyyənləşməsi məsələsində Bakı və Moskvanın mövqeləri üst-üstə düşür. Açıq qalan məsələ Rusiya MN-nin üç təklifinin nədən ibarət olmasıdır. İstisna deyil ki, bu sərhədin hansı ilin xəritəsinə uyğun aparılmasını özündə ehtiva edir və proses başlamayana qədər aydın olmayacaq.

> "Sülh müqaviləsi imzalandıqdan sonra Rusiya Nikolu yola salacaq"

**Paşinyanın "sülh" bəyanatını "Şərq"ə təhlil edən politoloq Azər Rəşidoğlu deyib ki, Rusiya münaqişəni Qarabağdan Ermənistan-Azərbaycan sərhədinə keçirməyə cəhd göstərir. Analitikin fikrincə, Kremlin istəyi odur ki, kommunikasiya xətləri açıldığı təqdirdə dəmir yollarına nəzarəti ələ keçirsin:** "Moskva Ermənistan və Azərbaycandan tələb edir ki, onsuz bir addım atılmasın. Nikol Paşinyanın vəziyyəti ağırdır. O, Azərbaycanın ərazi bütövlüyünü tanısa və sülh müqaviləsi imzalasa, müxalifət onu Qarabağı rəsmən satmaqda ittiham edəcək. Rusiya isə missiyasını başa vurmuş Nikolu yola salacaq. Paşinyan sərhəd məsələsində güzəştə getmək istəmir və düşünür ki, bununla İrəvanın məğlub olduğunu unutdura bilər. Azərbaycan isə konkret olaraq sərhədlərin delimitasiya və demarkasiyasını, Ermənistanla sülh müqaviləsinin imzalanmasını istəyir. Sərhəddə baş verən son qanlı hadisələrdən istifadə edən Kreml hər iki ölkənin sərhədlərini nəzarətə götürmək niyyətindədir. Odur ki, sərhəddə lokal toqquşmalar gələcəkdə də davam edə bilər".

**İsmayıl Qocayev**



**"Milli Məclisdə büdcə müzakirələri zamanı irəli sürdüyüm təkliflərdən biri də vətəndaşlara vaxtından əvvəl pensiyaya çıxmaq hüququnun verilməsi idi".**

**Bu barədə millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov deyib. Deputat bildirib ki, bir sıra hallarda vətəndaşlar kifayət qədər yüksək əmək haqqısı olan sektorda çalışır və nisbətən böyük pensiya kapitalına malik olurlar. Amma pensiya kapitalından istifadə etmək üçün pensiya yaşını gözləmək məcburiyyətində qalırlar:** "Təklifim isə həmin şəxslərə vaxtından əvvəl pensiya çıxmaq hüququnun verilməsi və onların öz kapitallarından daha uzun müddət istifadə imkanlarının tanıdılmasıdır.

# Vətəndaşlar 60 yaşda pensiyaya çıxa biləcəklər

## Millət vəkilinin təklifi əsasında nazirlikdə artıq müzakirə aparılır

Vaxtından əvvəl pensiyaya çıxmaq mümkündürmü? Bu hansı hallarda reallaşa bilər? Beynəlxalq praktikada pensiya yaşı tamam olmadan bu hüquqdan istifadə imkanları var. Bəzi ölkələrdə bu hətta pensiya kapitalına bağlanır. Orta pensiya kapitalından çox yığımları olanlar artıq vəsaitini öncədən almaq hüququn malik olurlar və bu zaman extra (artıq) yığılmış vəsait aylar üzrə hesablanmaqla vətəndaşa qaytarılır. Məsələn, ABŞ-da pensiya kapitalı çox olanlar daha tez müraciət edib pensiya alma imkanına malik olurlar. Digər metod isə pensiyada olan ayların sayının azaldılması və artırılması ilə bağlıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu məsələ ilə bağlı artıq müzakirələr aparılır. Bu daha çox minimum pensiya kapitalı yığmış vətəndaşlara tətbiq edilə bilər".

**Parlament üzvü qeyd edib ki, mövcud qaydalara əsasən, 144 ay orta pensiya müddəti kimi götürülür. Amma təklif qəbul olunarsa, o zaman vətəndaş 65 yox, 60 yaşda pensiyaya çıxa bilər:** "Bu halda həmin beş il üçün nəzərdə tutulan 144 ayın üzərinə 60 ay da gələcək. Yığılmış pensiya kapitalı 204 aya bölünəcək. Bu imkan verər ki, vətəndaş 5 il tez, yəni 60 yaşında pensiyaya çıxsın. Amma bu halda yığım 144-ə yox, 204-ə bölünməklə aylıq pensiya məbləği müəyyənləşə bilər. Büdcə müzakirələri zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu istiqamətdə müzakirələrin davam etdiriləcəyini bəyan etdi. Deməli, Azərbaycanda pensiya yaşı tamam olmadan pensiyaya çıxmaq imkanı reallaşa bilər".

**İsmayıl Qocayev**



# Ortada əməli iş, irəliləyiş yoxdur

## İrəvan hökumətinin heç bir bəyanatına inanmaq olmaz

> **Cümşüd Nuriyev:** "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün ciddi addımlar atmalıdır. Sadəcə Qarabağda deyil, Qazaxın 7, Naxçıvanın Kərki kəndində də anti-terror əməliyyatı aparmalıdır"

**Ermənistan silahlı qüvvələri noyabrın 17-də Tovuz rayonunun Muncuqlu, Ağbulaq, Qoşa, Koxanəbi və Əsrik Cırdaxan kəndləri istiqamətində yerləşən mövqelərimizi müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, qarşı tərəf cavab atəşi ilə susdurulub. Məlumat üçün bildirək ki, erməni tərəfi son bir həftə ərzində davamlı şəkildə təxribata əl atmaqda, Azərbaycanla sərhəddə qarşıdurma yaratmaqda davam edir. Ekspertlərin fikrincə, Ermənistanın hərbi avantürasının səbəbləri sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlıdır. İrəvan tərəfi artıq konkret mövqe və real addımlar tələb edən prosesin pozulmasına və yeni münaqişəli vəziyyətin yaranmasına çalışır. Təxribat öncəsi Ermənistanda baş verən kadr dəyişiklikləri, həmçinin bu ölkənin təhlükəsizlik şurası katibinin açıqlamaları sübuta yetirir ki, hərbi avantüranın ssenarisi baş nazir Nikol Paşinyanın mətbəxində hazırlanıb. O, yaxın dostu Suren Papikyanı məhz bu məqsədlə müdafiə naziri vəzifəsinə təyin edib. Şübhəsiz ki, Ermənistan rəhbərliyini təxribata həvəsləndirənlərin sırasında bölgədə yaranmış reallıqları özü üçün təhdid sayan riyakar qonşular da var. İstənilən halda Ermənistanın noyabr ayının ilk ongünlüyündən başlayaraq Azərbaycan ərazilərində Tovuz ssenarisinə uyğun təxribatlara əl atması rəsmi İrəvanın ənənəvi siyasətindən əl çəkmədiyini və çəkməyəcəyini bir daha təsdiqləyir. Acınacaqlı məğlubiyyətdən nəticə çıxarmayan Ermənistan indi də sərhədlərin delimitasiya və demarkasiya prosesində üstün mövqeyə sahiblənmək üçün davamlı təxribatlara əl atır. Sərhəd bölgəsində vaxtilə işğal nəticəsində yaratdığı reallıqları qismən də olsa bərpa etməyə çalışır. Ermənistanın son hərbi təxribatları sübuta yetirir ki, bu ölkə ilə hələ uzun illər normal münasibətlər qurmaq, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun davranmaq mümkün olmayacaq.

**Düşmənin təxribat cəhdlərini "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Ermənistanın təxribatları noyabrın 12-də İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatının növbəti sammitindən sonra intensiv hal aldı və düşmən daha da aqressivləşdi.** Professorun sözlərinə görə, Cənubi Qafqazda bir çox dövlətlərin maraqları kəsişdiyi üçün ermənilər bir neçə gücün əlində asanlıqla maşaya çevrilə bilirlər: "Bir-biri ilə "mehriban düşmən" olan ABŞ, Rusiya, Çin və İranı ortaq məxrəcə gətirən amil türk birliyinin yaranması, Turanın qurulmasıdır. Ona görə də indiki erməni təxribatlarında bir neçə qütbün marağı və əli var. Əvvəlcə onu qeyd edim ki, Şuşa təxribatının birbaşa hədəfi Moskvada gözlənilən üçtərəfli görüş idi. Moskva görüşü Ermənistandakı revanşistlərin, Fransanın və Rusiyanın hərbi dairələrinin maraqlarına uyğun olmadığına görə, erməni təxribatları ortaya çıxdı. İstər Kəlbəcər, Laçın, istərsə də Tovuz istiqamətində baş vermiş hadisələrdə birbaşa maraqlı olan güc Rusiyanın hərbi elitasıdır. Bütün erməni təxribatlarının arxasında rusların hərbi kəşfiyyatına yaxın dairələr durur. Məqsəd Moskvanın hərbi gücünün Cənubi Qafqazda daimi qalmasına nail olmaq, tərəflərə təzyiq imkanını saxlamaqdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün ciddi addımlar atmalıdır. Sadəcə Qarabağda deyil, Qazaxın 7, Naxçıvanın Kərki kəndində də anti-terror əməliyyatı aparmalıdır. O zaman Ermənistanın ağlı başına gələcək. Hazırda İrəvan hökumətinin heç bir bəyanatına inanmaq olmaz. Çünki ortada əməli iş, irəliyə doğru atılmış addım yoxdur".

**İsmayıl Qocayev**

# "Bütöv Azərbaycan Ocağı" son 10 ildə daha gur yanıb

## Faiq Ələkbərli: "İndi maşallah, Bütöv Azərbaycandan danışanların sayı çoxdur"

**Noyabrın 19-da, yəni bu gün Bütöv Azərbaycan Ocaqlarının təsis edilməsinin 10-cu ili tamam olur. Azərbaycanın bütövlüyü ideyasının təbliği ilə məşğul olan bu təşkilat 2011-ci ildə yaradılıb. 2012-ci ilin yanvarında təşkilatın ilkin nizamnaməsi hazırlanıb.**

Nizamnamədə Azərbaycan türklərinin öz tarixi torpaqlarında milli, hüquqi, demokratik və dünyəvi dövlətinin qurulması təşkilatın məqsədi kimi qəbul olunub. Təşkilatın əsasən fars şovinizminə qarşı mübarizə apardığı xüsusi vurğulanıb. Qısacası, BAO-nun ideologiyası türk millətçiliyi və Bütöv Azərbaycançılıqdır. Bugünədək qurumun iki qurultayı keçirilib. BAO fəaliyyəti dövründə 280-dən çox rəsmi və digər ictimai tədbirlər keçirib, 220-dan çox rəsmi sənəd qəbul edib. **Təşkilatın 10 illik yubileyini təbrik etmək və ötən dövr ərzində hansı işlər gördüklərini, gələcək planlarını öyrənmək məqsədi ilə Bütöv Azərbaycan Ocaqlarının Türk Dünyası ilə əlaqələr üzrə müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli ilə söhbətləşdik. Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə müsahibəsində qurumun əldə etdiyi uğurlardan və qarşıya qoyduqları vəzifələrdən danışdı...**

**- Faiq müəllim, Bütöv Azərbaycan Ocaqları hansı zərurətdən meydana çıxdı?**

- Bütöv Azərbaycan Ocaqları 2011-ci ilin noyabrın ortalarında təsis olunub. Əvvəlcə "Bütöv Azərbaycan Birliyi" (BAB) adlı təşkilat var idi və bu təşkilat 1997-ci ildə qurulmuşdu. Onun təsis edilməsində sabiq prezident, Xalq Cəbhəsinin lideri mərhum Əbülfəz Elçibəy mühüm rol oynamışdı. Bütöv Azərbaycan Birliyi Elçibəy 2002-ci ilin avqustunda rəhmətə getdikdən sonra bir müddət fəaliyyətini davam etdirdi. Ancaq 2010-cu illərin sonuna doğru artıq fəaliyyəti hiss olunmurdu. Məhz belə məqamda, yəni 2011-ci ilin payızında, noyabr ayında Bütöv Azərbaycan Ocaqları milli ideyanın daşıyıcıları kimi, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də 1989-90-cı illərin əvvəllərindəki milli ideyanın davamı olaraq təsis olundu. Xüsusilə də AXC-nin qurucusu, milli ideoloqumuz Məhəmməd Əmin Rəsulzadənin və onun davamçılarının ideyalarının nəticəsi kimi bu təşkilat quruldu. Əslində həmin dövrdə Bütöv Azərbaycan ideyası nisbətən durğunluq dövrünü yaşayırdı. Ortada boşluq var idi və digər təşkilatlar özlərini ifadə edə bilmirdilər. Hazırda BAO-nun başqanı olan Zahir Əlisoy və Aydın Mədətoğlu, Şirvani Ədilli, Faiq Quliyev təsisçilər arasında idi. İlk dönəmdə təşkilatın adı "Böyük Azərbaycan Ocaqları" şəklində ifadə olunmuşdu. Amma 2012-ci ildə adımızı "Bütöv Azərbaycan Ocaqları" formasında dəyişdirdik. Bunun da səbəbi var. "Böyük" sözü bir çox anlayışı ifadə etdiyinə görə, "Bütöv Azərbaycan"ın daha məqsədəuyğun olduğuna qərar verildi. Qısa müddət ərzində Bütöv Azərbaycan milli ideyasının aktuallaşmasına və yeni mərhələyə qədəm qoymasına nail olundu. Bu işdə bütöv azərbaycançılar - Aydın Mədətoğlu, mərhum Dilavər Əzimli, Eldəniz Şamlı, Firudin Ağasıoğlu və bəndəniz önəmli rol oynadıq. Xüsusən, Dilavər Əzimli qurumun ideoloji müavini kimi bu missiyanın həyata keçirilməsində ciddi işlər görmüşdü. 2016-cı ildə BAO-nun ilk qurultayını keçirtdik. Mütəmadi olaraq çoxsaylı konfranslar təşkil etdik, əhalinin müxtəlif təbəqələri ilə görüşdük. Dil və tarix sahəsində maarifləndirici addımlar atdıq, "BAO TV" yaratdıq. Türkiyə və digər ölkələrdə təmsilçiliyimiz təsis edildi. Yəni Bütöv Azərbaycan Birliyinin yarımçıq qoyduğu missiyanı BAO olaraq davam etdirməyə çalışdıq və sözümüzü deməyə başladıq.



> "Qarşıdakı illərdə növbəti tədbirlərimizi Təbrizdə keçirərik"

**- BAO 10 ildə öz missiyasını arzuolunan şəkildə həyata keçirə bilibmi? Milli ideya məsələsi indi hansı müstəvidədir?**

- Ən ümdə məramımız Azərbaycanın bütövlüyüdür. 55-60 milyonluq Azərbaycan xalqının vahid dövlət çatısı altında birləşməsi, üçrəngli bayrağımızın bütün Azərbaycan türkləri üzərində dalğalanması əsas qayəmizdir. 10 il ərzində xeyli işlər görülüb. Qarabağ məsələsində və elə 44 günlük müharibə zamanı daim təbliğat aparmışıq. Vətən savaşının başlanmasında və Zəfərlə bitməsində Bütöv Azərbaycan Ocaqlarının, təşkilat üzvlərinin böyük əməyi, xidməti olub. Əsas missiyamız o idi ki, heç bir halda pessimizmə qapılmaq, ruh düşkünlüyü yaşamaq olmaz. Müharibə dövründə və ondan sonra zaman-zaman şüurumuza "məsələnin yarımçıq qaldığını, heç nə əldə etmədiyimizi" yerləşdirməyə cəhd edirdilər. Amma BAO durmadan təbliğat apardı ki, heç nə yarımçıq deyil və öz torpaqlarımıza gec-tez sahib çıxacağıq. İndiki dönəmdə ayrı-ayrı millət vəkilləri, partiyalar, ictimai hərəkatlar Bütöv Azərbaycan ideyasından tez-tez danışırlar. Amma biz BAO olaraq bunu illər öncə ifadə edirdik. Görünür, bu istiqamətdə müəyyən irəliləyişlər var. Eyni zamanda türk xalqlarının birliyi məsələsində də BAO-nun xidmətləri çoxdur. İkinci Qarabağ müharibəsi və Şuşa Bəyannaməsindən öncə də qeyd edirdik ki, Türkiyə və Azərbaycan arasında ən yüksək səviyyədə müqavilə bağlanmalıdır. Şükürlər olsun ki, iki qardaş ölkə bu gün ən üst səviyyədə hərbi əməkdaşlıq etməkdədir. Bunun gerçəkləşməsində bizim də payımız var. Bilirsiz ki, Güney Azərbaycanla bağlı üç-dörd model var. Birincisi, mədəni muxtariyyət, ikincisi, milli-mədəni muxtariyyət, üçüncüsü, Güney Azərbaycanın istiqlalı, dördüncüsü isə türklərin İranda hakimiyyətə yiyələnməsi məsələsidir. Biz bu modelləri uzun müddət müzakirə etdik və məsələyə müəyyən mənada aydınlıq gətirdik. Mədəni muxtariyyət ümumiyyətlə qəbuledilməzdir. Milli-mədəni muxtariyyət nisbətən cəzbedici görünsə də, reallaşması mümkün deyil. Sadəcə son iki variant müzakirə mövzusudur. Sözün açığı, sonuncu model, yəni türklərin bütün İranda hakimiyyəti ələ keçirməsi də reallıqdan uzaqdır. Ən uyğunu Güney Azərbaycanın istiqlalıdır. Biz də BAO olaraq məhz bu modeli seçmişik. Düşünürəm ki, 10 ildə qarşımıza qoyduğumuz hədəflərin yarısına çatmışıq. İnşallah, qarşıdakı illərdə növbəti tədbirlərimizi Təbrizdə keçirərik.

**- Hazırda Bütöv Azərbaycan Ocaqları ən çox hansı problemlərlə üzləşir?**

- Əsas problemimiz maliyyə və ofislə bağlıdır. Pandemiyadan öncə ofisimiz var idi və üzvlük haqqı hesabına bəzi çətinliklərimizi aradan qaldırırdıq. Ancaq sonrakı dönəmdə vəziyyətimiz çətinləşdi. Hazırda ofisimiz yoxdur. İnsanlarımızın maddi durumu yaxşı olmadığı üçün üzvlük haqlarını da ödəyə bilmirlər. Bütün bunlara rəğmən, mübarizəmizi davam etdiririk. Çünki bizim üçün ən önəmli məsələ Azərbaycanın bütövlüyüdür. Gələcəyə ümidlə baxırıq. İllər boyu təkrar-təkrar söylədiyimiz həqiqətləri dünənədək heç kim dilə gətirmirdi. İndi maşallah, Bütöv Azərbaycandan danışanların sayı çoxdur. İnanırıq ki, fəaliyyətimiz dövlət və cəmiyyət tərəfindən düzgün dəyərləndiriləcək. Əsas məqam budur. Obyektiv və subyektiv səbəblərdən üzləşdiyimiz maddi problemlər zamanla öz həllini tapacaq.

**- Təşkilatın yeni layihələri varmı, planlarınız nələrdir?**

- Yeni missiya ilə yolumuza davam etmək istəyirik. Xarici ölkələrdə, əsasən Avropa dövlətlərində öz nümayəndəliklərimizi bərpa edəcəyik. Xarici ölkələrlə yanaşı, Azərbaycanın müxtəlif bölgələrində də nümayəndəliyin açılmasına zərurət var. Çünki Bütöv Azərbaycan ideyasının təbliğatını genişləndirmək, maarifləndirmə işini sürətləndirmək lazımdır. Bütöv Azərbaycan ideyasının reallaşması üçün müxtəlif təşkilatlarla, dövlət qurumları və müxalifət partiyaları ilə görüşlər keçirməyi planlaşdırırıq. Düşünürük ki, artıq bu sahədə müəyyən strategiya formalaşdırmalıyıq. Bu məsələdə bir az dəqiqləşdirmə aparmağa ehtiyac var. Həmçinin, BAO TV-nin fəaliyyətini bərpa etmək arzusundayıq. Eyni zamanda türk xalqları ilə daha sıx əməkdaşlıq etməyi planlaşdırırıq. Növbəti 10 ildə qarşımızda duran əsas məsələ Bütöv Azərbaycan üçün siyasi, iqtisadi, mədəni rıçaqlardan istifadə etməkdir. Hesab edirik ki, bu ideya beynəlxalq aləmdə daha böyük anlam qazanmalıdır. Dünya ictimaiyyəti də məramımızı bilməlidir. Şübhəsiz, dövlət tərəfindən dəstək olarsa, nəzərdə tutulan tədbirləri daha tez müddətdə həyata keçirə bilərik.

**İsmayıl Qocayev**

# Muradov yenidən səhnəyə qaytarıldı

## Rusiyanın vasitəçiliyi heç vaxt ölkəmizin xeyrinə olmayıb



> "Bu işdə "təcrübəli" sayılan rus general dərhal prosesə cəlb olunur və vaxt itirmədən Bakıya göndərilir"

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu təcili olaraq sülhməramlı kontingentinin ilk komandanı, hazırda isə Rusiya Silahlı Qüvvələrinin Cənub Hərbi Dairəsinin komandanının müavini general-leytenant Rustam Muradovu məzuniyyətdən geri çağırıb.**

Muradovun təcili şəkildə çağırılması generalın hərbi əsirlərlə bağlı İrəvan-Bakı arasında vasitəçi rolunu icra edəcəyi ilə əlaqəlidir. Məlumdur ki, Azərbaycan hərbçiləri tərəfindən noyabrın 16-da əsir götürülmüş erməni terrorçuları var. Ehtimala görə, Rusiya bu dəfə də əsirlərin Ermənistana verilməsini xahiş edəcək. Məlumat üçün bildirək ki, dünən Ermənistanın müdafiə naziri Suren Papikyan Rusiya Cənub Hərbi Dairəsi qoşunlarının komandan müavini, general-leytenant Rüstəm Muradovu qəbul edib. Ötən gün Rustam Muradovun Bakıdan İrəvana yola düşməsi, generalın Bakıdan sadəcə bir erməni cəsədi ilə geri dönməsi ilə bağlı xəbərlər yayılmışdı. Xatırladırıq ki, baş vermiş döyüşlər nəticəsində Ermənistan Müdafiə Nazirliyinin verdiyi məlumata görə 13 erməni hərbçisi əsir götürülüb. Bundan başqa qeyd edilib ki, 24 hərbçinin taleyindən hələ də xəbər yoxdur.

**Muradovun yenidən səhnəyə çıxması ilə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, Azərbaycan və Ermənistan arasında yaranmış istənilən konfliktdə, gərgin situasiyada Rusiyanın vasitəçiliyi heç vaxt ölkəmizin xeyrinə olmayıb. Partiya rəsmisi bəyan edib ki, bu vaxta qədər Azərbaycanda olan erməni əsirlərin Ermənistana verilməsində Kreml vasitəçilik edib və Rustam Muradovun əli ilə həyata keçirilib:** "Bu işdə "təcrübəli" sayılan rus general dərhal prosesə cəlb olunur və vaxt itirmədən Bakıya göndərilir. Muradov Azərbaycandakı erməni əsirlərin Ermənistana qatarılması prosesinin hamısında rol oynayıb. Amma bu halların hamısında Azərbaycanın güzəşti birtərəfli olub. Hələ də minalanmış ərazilərin tam və dəqiq xəritəsi ortada yoxdur. Birinci Qarabağ savaşında əsir götürülmüş, itkin düşmüş soydaşlarımızın taleyi haqda məlumat verilmir. Ancaq əsirlərin qaytarılması və digər bu kimi hallarda Azərbaycan tərəfinin humanizminin şahidi olmuşuq. Haqsız və təcavüzkar Ermənistan isə bütün hallarda Rusiyanın əli ilə mükafatlandırılıb. İndiki halda da fərqli nəticə gözləmək olmaz. Buna görə də istər Muradov, istərsə də başqa soyadlı rus hərbçisinin hər hansı vasitəçiliyindən imtina olunmalıdır. Şəhid olan və yaralanan Azərbaycan hərbçiləri var. Bu cinayətin iştirakçıları, qatillər isə məhz həmin erməni hərbçiləridir. Onlar ən sərt şəkildə cəzalarını almalıdır. Əsgərimizi şəhid edən erməni quldurlarının Ermənistana verilməsini Azərbaycan ictimaiyyəti heç cür qəbul edə bilməz".

**İsmayıl Qocayev**








# 6 yaşlı balamız ağır xəstədir

## Həcər ilk növbədə Mehriban xanım Əliyevadan və xeyirxah xalqımızdan kömək umur

**6 yaşlı Həcər ilk növbədə dövlətimizdən, Heydər Əliyev Fondunun prezidenti, birinci vitse-prezident Mehriban xanım Əliyevadan, həmçinin xeyirxah xalqımızdan kömək umur. Həcər balamız ağır xəstədir.**

Həcər Ceyhun qızı Musayeva 2015-ci il oktyabrın 2-si dünyaya gəlib. Anadan normal, sağlam körpə kimi doğulub. Fiziki və psixi inkişafında heç bir qüsur olmayıb. İnfeksion xəstəliklər keçirməyib. Ailədə Həcərdən başqa daha 2 azyaşlı uşaq var. Onlar sağlam böyüyürlər. Həcərin səhhətində isə 3 ay əvvəl problemlər yaranıb. Zəiflik, halsızlıq, yüksək hərarət, daha çox bel nahiyəsində hiss edilən sümük ağrıları başlayıb. Valideynləri əvvəlcə sahə həkiminə müraciət edib. Uşağa ambulator müalicə təyin edilib. Lakin vəziyyəti yaxşılaşmayıb, əksinə, getdikcə ağırlaşıb. Həcər 2021-ci ilin iyul ayında hemotoloq müayinəsinə aparılıb. Ondan analiz üçün sümük iliyi alınıb. Analiz nəticəsində uşağa B hüceyrəli kəskin leykoz diaqnozu qoyulub. Sonra uşağın vəziyyəti daha da ağırlaşıb və o, Milli Hemotologiya və Transfuziologiya Mərkəzinə qəbul edilib. MHTM-də uşağa kəskin limfoblast leykemiya diaqnozu qoyulub. Lakin xəstəliyin müalicəsi üçün ailənin maddi imkanı yoxdur. Çarəsiz qalan valideynlər böyük ümidlə ölkənin birinci xanımı Mehriban Əliyevaya müraciət edirlər. Mehriban xanımın humanistliyinə, uşaqlara daim qayğı göstərməsinə güvənərək Həcər balanın da müalicəsi üçün yardım göstərəcəyinə inanırlar.

*Həmçinin xeyirxah insanları da Həcərə kömək etməyə səsləyirlər. Müalicə üçün vəsaitin toplanacağı bank kartı rekvizitləri də təqdim olunur.*

# Böyük müharibə təhlükəsi yoxdur

## Ancaq düşmən hər təxribat törətdikdə ağır cavabını alacaq



**17 və 18 noyabr tarixlərində Tovuz istiqamətindəki mövqelərimizdə yenidən gərginlik yaşanıb.**

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 17-si saat 17:54-dən 22:52-dək Şəmşəddin rayonunun Çinarlı, Muğancıq kəndləri istiqamətində yerləşən mövqelərindən Tovuz rayonunun Muncuqlu, Ağbulaq, Qoşa, Koxanəbi və Əsrik Cırdaxan kəndləri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar.

Eyni zamanda dünən saat 14:10-dan etibarən Şəmşəddin rayonunun Çinarlı kəndi istiqamətində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini heç bir səbəb olmadan növbəti dəfə atıcı silahlardan intensiv atəşə tutublar. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Qarşı tərəf cavab atəşi ilə susdurulub. Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki olmayıb.

Son iki gündə Tovuzdakı mövqelərimizin Ermənistan tərəfindən intensiv atəşə tutulması bir çoxlarına ötənilki Tovuz hadisələrini xatırladır. Bu hadisələr İkinci Qarabağ savaşının başlamasında qığılcım rolunu oynamışdı. Maraqlıdır, belə olduğu halda genişmiqyaslı əməliyyatlar başlana bilərmi?

**Azərbaycan Demokratik Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Şərq"ə açıqlamasında deyib ki, bütün bu təxribatların Azərbaycan-Ermənistan arasında sülh müqaviləsi bağlanmasının uzadılmasına və rus sülhməramlılarının ərazidə daha çox qalmasına xidmət edir:** "Ermənistan rəhbərliyi sülh müqaviləsinin bağlanması ilə bağlı addımlar atmalıdır. Əks halda ermənilər özləri bu təxribatların qurbanı olacaqlar. Doğrudur, biz də qurbanlar veririk, amma onlar başa düşməlidirlər ki, bütün hallarda onların qurbanları daha çox olacaq".

**Partiya sədri vurğulayıb ki, Azərbaycan bundan sonra qətiyyətli mövqe tutmalı, hər bir təxribatda düşmənə yeni bir dərs verməlidir:** "Belə olduğu təqdirdə rəsmi İrəvan, nəhayət, bu avantürist siyasətini davam etdirməz. Bundan sonra da düşmən təxribat xarakterli addım atsa, biz təbii olaraq buna cavab verəcəyik. Xalqımız buna hazır olduğunu İkinci Qarabağ savaşında əyani şəkildə sübut etdi".

ADP sədri hazırda heç bir müharibə təhlükəsinin olmadığını diqqətə çatdırıb.

**Günəş Mərd**

# Payız tətilinin ləğvi səhv qərardır

## Bu qərarı verənlərin pedaqoji təhsil anlayışı yoxdur




**"Təhsil Nazirliyi pedaqogikaya zidd, yanlış qərarlar verməkdə davam edir. Ümumtəhsil məktəblərində dərslərin gec başlanması da yanlış qərar idi, payız tətilinin ləğvi qərarı da". Bu sözləri "Şərq"ə açıqlamasında təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov deyib. Ekspert bildirib ki, payız tətilinin ləğvi çox ciddi yanlışlıqdır:**

- Belə görünür ki, bu qərarı verənlərin pedaqoji təhsil anlayışı yoxdur. Şagirdlərin payız tətilini ləğv etmək ilk növbədə onların konstitusion hüquqlarını pozmaqdır. Uşaqların Konstitusuya ilə təsbir edilmiş hüquqları var. Bu hüquq pozulub. Dərslərin gec və ya tez başlanmasının tətillərə heç bir aidiyyəti olmamalıdır. Tətil ona görə verilir ki, şagirdlər fiziki və psixoloji yorğunluqdan azad olsunlar, dincəlsinlər. Nazirlik əsas gətirir ki, tədris ili gec başlayıb. Pandemiya, yoluxma təhlükəsi səbəbindən. Birincisi, əyani tədris gec başlasa da, uşaqlar onlayn tədrisə qoşulurdu. İkincisi, yoluxmanı səbəb göstərərək əyani dərslərin başlanma vaxtını uzatmaq heç bir üstünlük vermədi, heç nəyi dəyişmədi. Hazırda 70-dən çox orta məktəb yoluxma səbəbindən distant təhsilə qayıdıb. Müəllimlər arasında da yoluxanlar çoxdur, uşaqlar arasında da. Deməli, dərslərin ənənəvi başlanma vaxtının yubadılması səhv qərar idi. Bu qərarı verənlər bilməliydi ki, uşaqlar məktəbə gələndə onsuz da yoluxma sayı yenə artacaq. Bu, qaçılmazdır. Necə ki, biz bunu artıq çoxdandır müşahidə edirik. Bu yanlış qərarın üzərinə bir də payız tətilini ləğv etməmk qərarını gəldilər. İki yanlışı birdən etdilər. Uşaqlar onsuz da pandemiya şəraitində hədsiz gərilir, psixoloji yüklənirlər. Onları tətilsiz qoymaq çox səhv qərardır.

> "İki yanlışı birdən etdilər. Uşaqlar onsuz da pandemiya şəraitində hədsiz gərilir, psixoloji yüklənirlər"

*Qeyd edək ki, hazırda orta ümumtəhsil məktəblərində əməlli-başlı qarmaşa yaşanır. Bəzi məktəblər, xüsusilə də liseylər, özəl tədris ocaqları payız tətilinə çıxıb, "fağır" - dövlət təhsil müəssisələrində isə tədris davam edir. Onlara "siz oxumalısınız" əmri verilib. Xatırladaq ki, ümumtəhsil müəssisələrində payız tətilinin olub-olmayacağı məsələsinə bir müddət öncə aydınlıq gətirən Təhsil Nazirliyinin məlumatında qeyd olunurdu ki, "Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində 2021/2022-ci tədris ilində tədris və təlim-tərbiyə prosesinin təşkili ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 259 nömrəli qərarına əsasən, ibtidai təhsil səviyyəsi (I-IV) üzrə payız tətili günlərindən 16-18 noyabr tarixləri dərs günləri hesab olunur. İbtidai təhsil səviyyəsi (I-IV) üzrə 5 günlük ümumi təhsil müəssisələrində 19 noyabr tarixi payız tətili, 6 günlük ümumi təhsil müəssisələrində isə 19-20 noyabr tarixləri payız tətilidir. Ümumi orta (V-IX) və tam orta səviyyələri (X-XI) üzrə payız tətili günlərindən 16-19 noyabr tarixləri isə dərs günləri hesab olunur (ümumtəhsil müəssisələrində adətən 16-20 noyabr tarixləri payız tətili hesab olunurdu). Pandemiya səbəbindən bu tədris ili I-IV siniflər üzrə dərslər sentyabrın 22-dən, yuxarı siniflər üzrə 29-dan start verilib. Təhsil naziri Emin Əmrullayev də yeni tədris ili ərəfəsi öz açıqlamasında dərslərin 1-2 həftə gec başlamasının nəzərə alınacağını və tətillər hesabına kompensasiya ediləcəyini bildirmişdi.*

**Məlahət Rzayeva**

# "Kovidi ağır keçirənlərdə simtpomlar 2 ay qalır"



## Musa Qəniyev: "İybilmə və dadbilmə hissinin bərpası 2 həftədən 18 aya qədər çəkə bilər"

**"Covid 19"-dan sağalmış insanların post-pandemiya adlandırılan dövrdə daha çox nevroloji pozğunluqlardan, xüsusən inteqrativ, koqnitiv və operativ yaddaş pozğunluğundan əziyyət çəkdiyi bildirilir. Vurğulanır ki, bu pozğunluqlar çox uzun müddət davam edir, çətinliklə bərpa olunur, bəzən isə hətta tam bərpa olunacağı belə sual altında olur".**

*Bunu "Şərq"ə açıqlamasında tibb elmləri doktoru, professor Musa Qəniyev deyib. Professorun sözlərinə görə, "Covid 19"-dan sağalmış insanlarda, baş beyinin infeksiyalaşmasını sübut edən, patoloji dəyişikliklər müşahidə olunmur:* "Eləcə də istər xəstəliyin kəskin dövrü, istərsə də postkovid dövründə, onurğa beyin mayesinin tərkibində də heç bir dəyişiklik baş vermir. Bu iki halın özü də bir tərəfdən, "Covid 19"-un baş beyinə birbaşa təsir göstərməməsini sübut edir, digər tərəfdən, S (spike) zülalın baş beyinin sinir elementlərində geridönməz pozğunluqlar törədə bilmək gücündə olmadığını təsdiq edir. Odur ki, "Covid 19"-un kəskin dövrü, eləcə də postkovid mərhələsində müşahidə olunan bütün nevroloji pozğunluqların əsasında, yalnız immun hiperaktivlik, yəni "sitokin fırtınası" durur. İmmun hiperaktivlik halı müalicə fonunda aradan qalxdıqdan sonra, bütün nevroloji pozğunluqlar qeyri-şərtsiz olaraq, zaman-zaman bərpa olunmalıdır".

**M.Qəniyev qeyd edib ki, pozulmuş funksiyaların bərpa olunması ilk növbədə orqanizmin fərdi xüsusiyyətləri və xəstəliyin klinik gedişindən asılıdır:** "İnfeksiyanı yüngül formada pnevmoniya ilə birgə keçirmiş şəxslərdə, təqribən 1 ay sonra bütün fizioloji funksiyalar, o cümlədən operativ yaddaş pozğunluğu, psixi, mnestik və koqnitiv funksiyada törənən dəyişikliklər tam bərpa olunur. İnfeksiyanı ağır keçirənlərdə isə xüsusən qalıq respirator simptomlar (tənəffüsün çətinləşməsi, tam nəfəs ala bilməmək hissi və s.) təqribən 2 ay çəkir və bir qayda olaraq öz-özünə bərpa olunur. İnsanları daha çox narahat edən iybilmə və dadbilmə hissinin itməsi və ya bu hisslərin deformasiya olunmasıdır. Bildirmək istəyirəm ki, iybilmə və dadbilmə hissinin bərpası 2 həftədən 18 aya qədər çəkə bilər. Lakin bu hisslər tamamilə bərpa olunur. Odur ki, buna görə qorxmaq, həyəcanlanmaq və stresə düşmək lazım deyil".

**Aynurə Pənahqızı**

# Dövlət büdcəsindən vəsait ayrılmalıdır

## Azərbaycanda 350-yə yaxın məktəbin yenidən tikintisi və ya əsaslı təmirinə ehtiyac var



**"Şəhid ailəsi statusu daşıyan şəxslər özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil aldıqları zaman təhsil haqqından azad olunmalıdırlar".**

*Bu barədə "Şərq"ə millət vəkili Şahin Seyidzadə deyib. Deputat bildirib ki, bu məsələ mütləq 2022-ci ilin dövlət büdcəsində nəzərə alınmalıdır. Parlament üzvü vurğulayıb ki, təhsillə bağlı digər mühüm məqam məktəb binalarının vəziyyəti ilə bağlıdır:* "Əminəm ki, digər deputat həmkarlarıma da vətəndaşlar tərəfindən daima məktəblərin tikintisi və ya əsaslı təmiri ilə bağlı müraciətlər daxil olur. Bu məsələ xüsusi diqqət yetirilməli məsələlərdən biridir. Dövlət büdcəsinin inevestisiya xərclərindən məktəblərin əsaslı təmirinə və ya tikintisinə dair vəsait ayrılmalıdır. Eyni zamanda yeni tikilən və əsaslı təmir olunan məktəblərin sayının ayrıca göstərilməsi vacibdir. Hazırda Azərbaycanda 4500-ə yaxın məktəb mövcuddur. Həmin məktəblərin təxminən 8 faizinin, yəni 350-yə yaxın məktəbin yenidən tikintisi və ya əsaslı təmirinə ehtiyac var. Təmsil etdiyim Abşeron-Qobustan rayonları üzrə 17 məktəbin əsaslı təmiri də vacibdir. Abşeron rayonu, Ceyranbatan 2 saylı məktəbin şagirdlərinin bir qismi gündəlik təhsilini tədris binasına aid olmayan ambulator məntəqədə alırlar. Həmçinin, Qobustan rayonu, Ərəbşalbaş kənd məktəbi 50 ildən çoxdur istismarda olduğundan məktəb yararsız haldadır. 2022-ci ilin dövlət büdcəsində əvvəlki illərlə müqayisədə daha çox məktəbin təmiri və tikintisinə vəsaitin ayrılmasını məqsədəuyğun hesab edirəm".

**İsmayıl**

# "Paşinyan prosesi uzatmaq istəyir”

## Sabir Məmmədli: “Rusiya öz hərbçilərinin ərazilərimizdə daimi mövcudluğunu təmin etməyə çalışır”

**Ermənistan noyabrın 15-dən etibarən Azərbaycanla sərhəddə vəziyyəti gərginləşdirib. Aramsız döyüşlər noyabrın 16-da gecə saatlarında Rusiyanın vasitəçiliyi ilə dayandırılıb. Azərbaycanla Ermənistan arasında sərhədin müəyyən edilməsi ilə bağlı mübahisələr davam edir.**

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan prezidentlərinə zəngi, ABŞ, Rusiya, Fransa, İtaliya və digər ölkələrin bəyanatları - hamısında narahatlıq ifadə olunmaqla yanaşı, sərhədlərin demarkasiya və delimitasiyası ilə bağlı danışıqlara başlamağın vacibliyi vurğulanıb. Dövlətlərin mövqeyi Azərbaycanın mövqeyi ilə üst-üstə düşür. Lakin ölkəmiz aylardır ki, sərhədlərin demarkasiya və delimitasiyası, kommunikasiyaların açılması, sülh müqaviləsinin bağlanması təşəbbüsü ilə çıxış edir. Ermənistan isə bu çağırışlara konkret reaksiya vermir.

Əksinə, Ermənistanın xarici ölkə və təşkilatlara müraciətlərində qorxaqlıq, acizlik, yaltaqlıq və şantaj əlamətləri var. Ermənistan TŞ-nin katibi Armen Qriqoryan, Rusiyanın və KTMT-nin məsələyə müdaxilə etməyəcəyi təqdirdə digər beynəlxalq tərəfdaşlara müraciət hüququnu özündə saxlaması barədə açıqlama yayır. Ermənistanın münasibətinə fikir bildirən rusiyalı jurnalist Maksim Şevçenko hesab edir ki, Ermənistan Rusiyanı şantaj etməkdə davam edərsə, Qarabağın əvəzinə Zəngəzurun statusunu müzakirə etməli olacaq.

*Vəziyyəti şərh edən BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli mövcud durumla bağlı ”Şərq”in suallarını cavablandırıb.*

**- Azərbaycan sərhədlərin müəyyənləşdirilməsi istiqamətində addımlar atır. Lakin reallıq fərqlidir, Ermənistandan müsbət cavab görmürük, proses ləngidilir. Səbəb nədir?**

- Sərhədlərin demarkasiya və delimitasiya məsələsi Azərbaycanın maraqlarına tam cavab verir. Ölkəmiz həmişə inadkarlıqla deyir ki, Azərbaycan-Ermənistanm arasında bu prosesi həyata keçirmək lazımdır. Söz xatirinə olsa belə, Rusiya da mövzunu gündəmə gətirir. Amma Rusiyanın sözügedən məsələdə ciddi maraqları var, lakin nə olduğu açıqlanmır. Müxtəlif informasiyaları analiz edəndə anlayarıq ki, Rusiyanın marağı demakrasiya və delimitasiya məsələsindən istifadə edərək Azərbaycana müəyyən mənada təzyiq göstərməkdir. Eyni zamanda Ermənistanla Azərbaycan sərhədinə rus hərbçilərini yerləşdirməkdir. Amma Azərbaycan tərəfi buna razılıq vermir. Rusiya deyir ki, demarkasiya və delimitasiya prosesində qarşılıqlı güzəşt edilməlidir. Lakin güzəştin mahiyyəti ictimaiyyətə açıqlanmır. Yəqin ki, Azərbaycan rəhbərliyi Rusiyanın məqsədi və istəyini bilir. Güzəştlərdə ərazi mübadiləsindən söhbət gedirsə, bunu açıq şəkildə bildirməlidir. Qazaxın işğal altında olan 7 kəndini nəzərdə tuturlarsa, onu da söyləməlidirlər.



Ümumiyyətlə, Azərbaycanın marağı sərhədləri tam müəyyənləşdirməkdir. Rəsmi İrəvan isə ölkəmizin ərazi bütövlüyünü tanımamaqla prosesi uzatmağa çalışır. Bəhanə ortalığa atır. Guya, sərhədboyu Azərbaycan və Ermənistan hərbi birləşmələri geri çəkilməlidir, sonra demarkasiya və delimitasiya məsələsi həyata keçirilməlidir. Bu, absurddur. Xəritəyə uyğun olaraq sərhəd müəyyənləşəcək. Geri çəkilməyə nə ehtiyac var? Məlum təklif, mübahisə yaratmaqdan ötrüdür. Azərbaycan tərəfi sərhədləri müəyyənləşdirməyin Ermənistanla aralarında həll edəcəyi məsələ olduğunu söyləyir. Başqa ölkələrin iştirakına ehtiyac yoxdur. Ölkələrin marağı ”bulanıq suda balıq tutmağa” çalışmaq kimidir.

**- Ermənistan Rusiyanın və KTMT-nin məsələyə müdaxilə etməyəcəyi təqdirdə digər beynəlxalq tərəfdaşlara müraciət hüququnu özündə saxlaması barədə açıqlama yayıb. Belə çıxır ki, rəsmi İrəvan Rusiyanı şantaj edir?**

- Ermənistan Rusiyanın prosesdə iştirakına razılıq verir. Nəzərə almaq lazımdır ki, faktiki olaraq rəsmi Moskvanın təyziqi altında fikir irəli sürür. Rusiyanın Baş Qərargah rəisi də səfər etdi. Özü ilə xəritələri gətirmişdi. Məsələ bundadır ki, Rusiya Prezidenti Vladimir Putin kənar qüvvələrin proseslərə qatılmasına ehtiyac olmadığını deyir. Rusiyanın Ermənistan üzərində dominantlığı açıq-aşkardır. Ermənilər bunu gizlətmirlər. Həqiqətən, Rusiyanın prosesdə iştirakı Azərbaycanın ziyanınadır. Onsuz da Ermənistan tərəfdə rus bazaları, hərbçiləri var. Paşinyan Avropaya mesaj ötürür, guya, Rusiyanın prosesdə olmasını istəmir. İkili oyun oynayır. Rusiya onu sıxışdıranda şərtlər ilə razılaşır. Bir neçə müddət öncə, Paşinyan bildirdi ki, Ermənistan ATƏT-in həmsədr ölkələrinin hərbçilərini sərhədboyu, yaxud Laçın-Kəlbəcər ərazisində yerləşdirilməsini arzulayır. Xüsusilə Fransa hərbçilərini nəzərdə tuturdu. Sonradan mövzu gündəmdən çıxdı, Rusiyanın rəsmi İrəvana təpki göstərdiyini başa düşdü, məsələni kənara atdı.

**- Rusiya və Errmənistan sərhədlərin demarkasiya və delimitasiyasının tezliklə həllini istəmirlər?**

- Paşinyan prosesi uzatmaq istəyir ki, Ermənistan əhalisinin ona qarşı aqressiyası azalsın. Rusiya isə öz hərbçilərinin ərazilərimizdə daimi mövcudluğunu təmin etməyə çalışır. Düyün açılmır, məsələ uzandıqca Rusiyaya möhtac olacaqlar. Belə ki, rəsmi Moskva regionda mövcudluğunu davam etdirəcək. İşlərin ləngiməsi Ermənistana və Rusiyaya ”əl verir”. Belə görünür, Putin və Paşinyan bilərəkdən sülh prosesini yubadırlar.

Son günlər ermənilər sosial mediada Rusiyanın ünvanına ismarıclar göndərirlər. Guya, Rusiya öhdəliyini yerinə yetirmir. Hətta 1997-ci ildə Rusiya ilə Ermənistan arasında təhlükəsizlik təminatı ilə bağlı xüsusi müqavilə gündəmə gətirilir. İddialara görə, KTMT üzvü olduğu səbəbindən Ermənistana digər üzv ölkələr də kömək etməlidir. Hətta iddia edirlər ki, sərhəddə yaşanan gərginlik üçün Azərbaycana təzyiq göstərilməlidir. Lakin rəsmi şəkildə müraciət olunmayıb. Paşinyan Rusiya prezidenti ilə danışığında bundan söz açıb. Obyektiv qiymətləndirsək Moskva da məsələyə soyuq yanaşır. Paşinyan məsələni şişirdir. Təxribat törədən, mübahisə yaradan Ermənistandır.

**- Türkiyə bu döyüşlərdə də Azərbaycana dəstək ifadə etdi...**

- Türkiyə Milli müdafiə naziri Hulusi Akar Türkiyə Azərbaycanın yanında olduğu barədə bəyanat verdi, hətta Ermənistanın təxribat hərəkətləri davam edərsə, istənilən halda müharibəyə başlaya biləcəklərini sərt formada dilə gitərdi. Rusiya Türkiyənin məsələni silahlı yollarla həll edə biləcəyini gözəl anlayır.

**- Rusiyalı jurnalist Maksim Şevçenko hesab edir ki, Ermənistan Rusiyanı şantaj etməkdə davam edərsə, Qarabağın əvəzinə Zəngəzurun statusunu müzakirə etməli olacaq. Bu halda Zəngəzurun statusu gündəmə gələ bilərmi?**

- Müəyyən sərhəd zonada yerləşən torpaqların mübadiləsi ilə əlaqədar ərazi dəyişdirilməsi gündəmə gələ bilər. Bütövlükdə Zəngəzurun status məsələsi çətin gündəmə gələr. Vaxtilə Putin özünün siyasət müəllimi Anatoli Sobçakın fikrini sitat gətirmişdi: ”Bir halda ki, SSR dağılır, onda müttəfiq respublikalar hansı ərazilərlə SSR-yə daxil olmuşdularsa, həmin ərazilərlə çıxmalıdır”. Məncə, o bunu ürəkdən demir, sadəcə, Azərbaycanı şirnikləndirmək istəyir. Qərbi Zəngəzurun Azərbaycana birləşdirilməsinə Rusiyanın razılıq verəcəyi reallığa uyğun gəlmir. M.Şevçenkonun fikrinin reallaşmasını istəyərdik. Təəssüf ki, bu, Kremldə qərar verən siyasətçilərin düşüncələri deyil.

**Aygün Tahir**

# "Həssas məqamda insanlar informasiya aclığı yaşamamalıdır"

## Hərbi jurnalist Səxavət Məmmədov: “Mətbuata daha çox iş görmək üçün şərait yaradılmalıdır”

**Ötən gün Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatla bağlı Dövlət Təhlükəsizliyi Xidməti ilə yanaşı Medianın İnkişafı Agentliyi mətbuat nümayəndələrinə müraciət edərək bəzi tövsiyələri xatırlatdı:**

”Hörmətli media subyektləri və jurnalistlər, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən dövlət sərhədində törədilən bəzi təxribatlarla bağlı yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatlarına istinad etməyiniz, qeyri-rəsmi mənbələrə müraciət etməməyiniz xahiş olunur”.

Rəsmi qaynaqların təsdiq etmədiyi məlumatların əldə olunub, hazırlanıb, ötürülməsi vətəndaşlar arasında təşviş yaradır. Belə vəziyyətdə isə arxa cəbhədə çalışan media mənsublarının üzərinə daha çox məsuliyyət düşür.

**Medianın belə həssas məqamlardakı rolundan danışan hərbi jurnalist Səxavət Məmmədov ”Şərq”ə bildirib ki, Media İnkişaf Agentliyinin müraciəti yaxşı addımdır:** ”Belə həssas dönəmlərdə cəmiyyətdə, sosial media şəbəkələrində çoxlu sayda şayiələr, dezinformasiyalar dolaşır. ”Fake news”un ayaq açıb yeriməsinə imkan vermək olmaz. Amma peşəkar mətbuat orqanları və jurnalistləri də ”ofsayta” salmaq olmaz. Həmin hadisələr baş verən zaman erməni mediasını, sosial şəbəkələrdə paylaşımlarını izləyirdim. Maraqlısı budur ki, Ermənistanın rəsmi qurumları bəzi erməni jurnalistlərə istinad edib müəyyən informasiyaları yayıb, yazıblar. Bizdə isə belə hadisələr baş vermədi”.



Həmkarımız bunu da əlavə edib ki, Azərbaycan mediasında peşə məsuliyyəti daha çoxdur: ”Burada əsas problem mətbuatın kənarda qalmasıdır. Çünki jurnalistika faktiki olaraq bu işlərlə məşğul olmalıdır. Belə bir sual meydana çıxır: Azərbaycan Müdafiə Nazirliyi gün ərzində neçə informasiya yaya bilib? Dünən baxdıq ki, yalnız iki-üç informasiya paylaşılıb”.

**S.Məmmədov diqqətə çatdırıb ki, jurnalistikada səbəb, gedişat, nəticə qeyd olunmalıdır:** ”Məsələn, ermənilər deyir ki, iki post itirmişik. Belə olduğu halda deməli, onlarda ərazi itkisi də var. Azərbaycan MN-dən bununla bağlı heç bir informasiya yoxdur. O zaman bunu səmimi qəbul edərəm ki, nazirlik intensiv şəkildə informasiyalarla insanları təmin etsin. Onlar informasiyanı çox gec-gec yayır. Məsələn, genişmiqyaslı hücum əməliyyatlarının başlaması barədə məlumat varsa, ən azından 1 il həqiqi hərbi xidmətdə olmuş adam bilir ki, nə baş verir, artilleriyadan, tanklardan istifadə nə deməkdir. Müdafiə Nazirliyi onların texnikalarının vurulmasını göstərirsə insanlar artıq genişmiqyaslı hücum əməliyyatından məlumatlı olur. Müharibənin atributlarının hamısı demək olar ki, orada var idi. Yalnız Azərbaycan Hərbi Aviasiya Qüvvələri işləməyib. Belə olan halda insanlar informasiya aclığı yaşayır. İnformasiya bolluğu ilə əhalini doyuzdurmaq lazımdır. Vətəndaşlar da rəsmi qurumların informasiya yaymadığını, mətbuatın qıraqda qaldığını gördükdə, erməni mənbələrinə müraciət edirlər. Nəticədə bugünkü proses baş verir. Sosial şəbəkəyə giririk və hər kəsin eyni istiqamətdə narazılıqlarını müşahidə edirik. Müharibəni istəyən də, istəməyən də narazı halda müəyyən suallar səsləndirirlər. Bu prosesin qarşısını almaq üçün ya Müdafiə Nazirliyi operativ şəkildə məlumat yaymalı, ya da hər hansı aidiyyəti qurumlarla mətbuat nümayəndələri ilə əlaqədə olmalıdır. Azərbaycan mətbuatı Müdafiə Nazirliyindən məlumat verilsin deyə saatlarla gözləməli deyil”. Müsahibimiz diqqətə çatdırıb ki, bütün bunlar çox ciddi problemdir: ”Bu tip hadisələrdə mətbuata daha çox iş görmək üçün şərait yaradılmalıdır. Əks halda bu kimi proseslərdə insanlar narahatlıq içində düşünəcəklər ki, nələrsə baş verir. Sosial şəbəkəyə girəndə insan pis olur ki, nəyə görə ön cəbhədə baş verənlər barədə rəsmi məlumatlar az verilir. Düşünürəm ki, rəsmi qurumlar da məsələ ilə bağlı düşünməlidir. Medianın işini asanlaşdırmaq üçün ciddi addımlar atılmalıdır”.

**Sücayət Mehti**

# Rəsmi İrəvanı masaya əyləşdirmək mümkündür

## Amma Rusiya buna canfəşanlıq etmir



**Rusiya XİN sözçüsü Mariya Zaxarova həftəlik keçirilən brifinqdə Azərbaycanla Ermənistanı sərhədlərinin delimitasiyası prosesinə başlamağa çağırıb. O bildirib ki, Rusiya Ermənistan və Azərbaycan tərəfindən sərhədlərin delimitasiyası prosesinin mümkün qədər tez başlamasını vacib hesab edir:**

”Son hadisələr Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası prosesinin tezliklə başlanmasının və sonradan demarkasiyasının, habelə Rusiyanın əvvəllər təqdim edilmiş təklifləri əsasında müvafiq komissiyanın işə başlamasının vacibliyini təsdiqləyir”.

Nəzərə alsaq ki, Azərbaycan tərəfi indiyə qədər Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası prosesinə başlamağının əleyhinə olmayıb, rəsmi Moskvanın belə ikitərəfli çağırışı təəccüb doğurur.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev vurğulayıb ki, rəsmi Moskva səmimi davransa idi, indiyə qədərki proseslər baş verməzdi:** ”Atəşin kəsilməsi və 10 noyabr sazişi ilə bağlı olan məsələlərdə Rusiyanın hakim rolunu bilirik. Rəsmi Moskva bu proseslərdə yaxından iştirak edib. Buna baxmayaraq Kremlin gözü qarşısında Ermənistan dəfələrlə təxribat törədib. O da susub. Halbuki, bunun qarşısını almaq kimi bir öhdəliyi var idi. Digər tərəfdən Ermənistanın müdafiə naziri əlini, qolunu sallayaraq Qarabağ ərazisinə gedir. Və indiyə qədər ordan çıxarılmalı olan erməni silahlıları ilə görüşür, onların mövqelərinə baxır. Hərçənd ki, erməni silahlıları ordan çıxmalı idi. Rusiya buna ”göz yumdu”. Onların gözü önündə erməni terrorçu gəlib Azərbaycan əsgərinə qumbara atır, onlarsa, terrorçunu tutub təkrar Ermənistana təhvil verirlər. Bu siyahını xeyli artırmaq mümkündür”.

*Partiya sədri bu hadisələrdən sonra Rusiyanın çağırışında başlıca olaraq iki məqsədin olduğunu bildirib:* ”Birincisi, rus sülhməramlıların buna aidiyyəti olmadığını göstərməkdir. Digər tərəfdən özünün sülhpərvər olduğunu, tərəfləri ortaq nöqtəyə gətirmək istədiyini bəlli etməyə çalışır. Xatırladım ki, rəsmi Moskvanın bu çağırışı Avropa İttifaqı tərəfindən bizim ölkə başçısına edilən telefon zəngindən sonra baş verdi. Rusiya cəld ortalığa düşüb məsələyə belə münasibət bildirməklə tərəflər arasında yalnız özünün hakim rolunda iştirak edə biləcəyini göstərməyə çalışdı. Bütün amillər onu göstərir ki, prosesdə Rusiyanın izi var. Rəsmi Moskva həqiqətən bu məsələnin həll olmasını istəyirsə, Putinin də dediyi kimi onlarda sərhədlərlə bağlı xəritələr varsa, niyə delimitasiya və demarkasiya prosesi bu qədər yubadılır? Birmənalı şəkildə rəsmi İrəvanı masaya əyləşdirmək mümkündür. Amma Rusiya tərəfi buna cəhd etmir”.

**F.Quliyev bu məqamda rəsmi Moskvanın çağırışındakı səmimiyyətin müzakirə mövzusu belə ola bilməyəcəyini diqqətə çatdırıb:** ”Azərbaycan bu dönəmdə yenə öz soyuqqanlı, qətiyyətli davranışını davam etdirməlidir”.

**Günəş Mərd**

# Ən böyük suçlu Kremldir

## Rusiya öhdəliyinə götürdüyü vəzifələri reallaşdırmayıb



**Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycanla Ermənistan arasında yaşanan son gərginliklə bağlı açıqlama yayıb.**

O bildirib ki, Rusiya tərəfləri təmkinli olmağa çağırır. D.Peskovun sözlərinə görə, rəsmi Moskva üçtərəfli razılaşmaların icrasının tərəfdardır: ”Döyüşlərin yenidən başlaması ciddi narahatlıq doğursa da, Rusiyanın vasitəçiliyi sayəsində bunu dayandırmaq mümkün oldu. Rəsmi Moskva vasitəçilik səylərini davam etdirəcək. Məsələni yalnız Qarabağla bağlı ümumi razılaşmaları yerinə yetirməklə həll etmək mümkündür”.

D.Peskov Rusiya, Azərbaycan, Ermənistan liderləri arasındakı görüşün zəruri olduğunu, amma bunun üçün bütün tərəflərin razılıq verməsinin vacibliyini söyləyib.

**D.Peskovun açıqlamasını ”Şərq”ə şərh edən analitik Rusif Məmmədsoy qeyd edib ki, təxribatların arxasında bilavasitə rəsmi Moskvanın dayandığı danılmazdır:** ”Rusiya tərəfi ”maraqlı” açıqlamalar verir. Dünən M.Zaxarova deyir, sərhədlərin delimitasiya və demarkasiya prosesi mütləq şəkildə sürətlənməlidir. Bu zaman sual yaranır. Bəs, sərhəddəki təxribatları kim törədir? Revanşist qüvvələr hansı mərkəzdən idarə olunur? Koçaryan və digərləri Rusiyanın maşasıdır. D.Peskovun açıqlamaları bizim üçün sürpriz deyil. Rusiya Prezidenti V.Putin Ermənistanın vəzifəsinin kommunikasiyaları açmaq olduğunu vurğulayır. Rəsmi Moskva Ermənistanı məsələnin həllinə məcbur edə bilər. Sadəcə Rusiya işlərin sürətlənməsində və münaqişə ocağının sönməsində maraqlı deyil”.

**Siyasi şərhçi diqqətə çatdırıb ki, problemlərin tezliklə həll edilməsində Kreml maraqlı deyil:** ”Təsəvvür edin, Azərbaycanla Ermənistan sülh müqaviləsi imzalayıb. Bundan sonrası Kremlin ”sülhməramlı” kontingenti altında Qarabağda, ümumiyyətlə, Cənubi Qafqazda nə işi olacaq? Proses irəliləyəndə Ermənistan iqtisadi cəhətdən inkişaf edəcək, Rusiya və digər ölkələrdən asılılığı azalacaq. Bu da rəsmi Moskvanın regiondakı maraqlarına uyğun deyil. Lakin qəbul etməliyik ki, Kreml kommunikasiyaların açılmasını istəyir. Çünki Zəngəzur dəhlizi və digər nəqliyyat yolları yükdaşımalarda, logistik məsələlərdə vacib əhəmiyyətə malikdir. 10 noyabr bəyannaməsinin 6-cı bəndində belə bir müddəa var: Laçın koridoruna alternativ olaraq dəhliz qurulmalı və 3 il ərzində inşa edilməlidir. Artıq 1 il gedib. Heç bir halda hələlik prosesi sürətləndirib, Laçın dəhlizini nəzarətə götürə bilmirik. Bu dəhliz vasitəsilə ilə humanitar yardımlar aparılmalı, Bəyannamənin 4-cü bəndinə uyğun olaraq terrorçu ermənilər Qarabağı tərk etməli idilər, lakin yerinə yetirilməyib.

Rusiya öhdəliyinə götürdüyü vəzifələri reallaşdırmayıb. Sadəcə, Ağdam və digər ərazilərin sülh yolu ilə azad olunmasında iştirak edib. Rəsmi Moskva öhdəliklərini gerçəkləşdirmədiyi üçün biz Xankəndinə hələ daxil ola bilməmişik. Yoxsa, qısa müddətdə suverenliyimizi bərpa edə bilərik”.

**R.Məmmədsoy sonda Ermənistanın daxilindəki vəziyyətdən danışıb:**

”Ermənistanın respublika meydanında ”rədd ol, Rusiya” şüarı altında etiraz aksiyası keçirildi. Ermənistan cəmiyyəti yaxşı başa düşür ki, rusların vasitəçiliyi ilə hər hansı sülhdən söhbət gedə bilməz. Çünki yenə itkiləri, əsir düşənləri var. N.Paşinyanın təxribatlarda maraqlı olduğunu düşünmürəm. Onun ən həssas yeri əsirlərlə bağlıdır. Radikal müxalifət hərbi əsirlərin Azərbaycan tərəfində olmasından istifadə edirdi. Bütün əsirləri təhvil vermişik, qalanlar isə anlaşmadan sonra ərazilərimizə daxil olan terrorçu dəstələrdir. Bir məsələ aydındır ki, Azərbaycan məqsədinə yaxınlaşdıqca, təxribatlar davam edəcək”.

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Məlahət Rzayeva



# Bakıda uşaqların növbəti forumu keçirilib

## Leyla Tağıyeva: “Uşaqların irəli sürdüyü təkliflər mütləq nəzərə alınmalı, dövlət proqramlarına daxil edilməlidir”

**Dünən Bakıda ”Heydər Əliyev Fondu”nun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, ”Regional İnkişaf” İctimai Birliyinin və BMT-nin Uşaq Fondunun (UNİCEF) birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu keçirildi. Forumda Azərbaycanın bütün şəhər və rayonlarından fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, həmçinin komitə tərəfindən təşkil olunan yay məktəbinin iştirakçısı olmuş, liderlik keyfiyyətlərinə məxsus 350-yə yaxın uşaq iştirak edirdi.**

Həmçinin Forumda xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud, digər millətlərdən olan, valideyn himayəsindən məhrum olmuş, xüsusilə şəhid və qazi ailələrindən olan uşaqların təmsilçiliyinə daha çox önəm verilirdi. Ümumrespublika Uşaq Forumları uşaqların öz hüquqlarına dair qərarların qəbul olunmasında iştirakını təmin etmək, onlara problemlərinin həlli ilə bağlı təşəbbüslər irəli sürmək və təkliflər vermək imkanı yaratmaq, ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək baxımından əhəmiyyətlidir. Forumlar uşaq hüquqlarının qorunması və təbliği, uşaqlarla bağlı siyasi və hüquqi qərarların qəbulu, qanunvericilikdə, proqram və layihələrin hazırlanması və həyata keçirilməsində uşaqların fikirlərinin nəzərə alınması və onların maraqlarının qorunması; uşaqlara öz problemlərini səsləndirmək, təşəbbüslərlə çıxış etmək və tövsiyələr vermək imkanı yaratmaq; dövlət orqanlarının, ictimaiyyət və vətəndaş cəmiyyətinin, eləcə də, kütləvi informasiya vasitələrinin diqqətinin uşaqların hüquq və azadlıqlarının qorunması və təmin edilməsinin zəruriliyinə cəlb edilməsi məqsədilə keçirilir. Məlumat üçün qeyd edək ki, Azərbaycan Uşaqlarının ilk Ümumrespublika Forumu 2009-cu ildə keçirilib. Ümumiyyətlə, forumlar 3-4 ildən bir keçirilir. Ölkəmizdə uşaq hüquqlarının qorunması, uşaqların sağlam yaşayışı, fiziki inkişafı dövlət siyasətinin prioritet sahəsidir. Bunun təsdiqi təkcə qəbul edilən dövlət proqramları deyil, həm də proqramların icrasında qarşıya qoyulan ciddi tələblərdir. **Forum iştirakçılarına ünvanladığı müraciətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məqama toxundu. Prezidentin müraciətində qeyd edilir ki:** ”uşaqlar cəmiyyətin sabahıdır. Övladlarımızın milli dəyərlərə sadiq və yüksək mənəviyyatlı şəxsiyyət olaraq formalaşmalarının ölkəmizin tərəqqisi baxımından müstəsna əhəmiyyəti vardır. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycan dövlətinin ardıcıl həyata keçirdiyi sosialyönümlü siyasət də bu məqsədə xidmət edir. Ötən Forumunuzda səsləndirilmiş bir çox məsələlər uşaqlarımızın hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin olunmasına yönələn ”Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nda dolğun əksini tapmışdır. Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz. Bu gün Azərbaycan sürətli inkişaf yolundadır. Yurdumuzun ildən-ilə daha güclü, daha qüvvətli olması eyni zamanda sizin xoşbəxt və firavan yaşamağınızın rəhnidir. İndiki nəsil qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəkdir. Odur ki, üzərinizə düşən məsuliyyəti daha dərindən dərk edərək, daim əzmlə çalışmalı, Vətəni layiqincə təmsil etməlisiniz. İnanıram ki, siz mənən zəngin nəsil kimi azərbaycançılıq ruhunda böyüyərək boya-başa çatacaq, respublikamızın gələcək inkişafı və uğurlar qazanması naminə töhfələrinizi əsirgəməyəcəksiniz. Ümidvaram ki, Forum çərçivəsində aparacağınız müzakirələr ölkəmizdə uşaqlarla bağlı dövlət siyasətinin gerçəkləşdirilməsində yeni mərhələnin başlanğıcı olacaqdır”.

**Forumun işi məhsuldar olub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, uşaqların ümumrespublika forumlarındakı təklifləri dövlət proqramlarının hazırlanmasında nəzərə alınır. Hazırkı Forumda da bir sıra maraqlı və düşündürücü təkliflər səslənib:** ”2009-cu ildən uşaqların ümumrespublika forumları keçirilir. Bu müddət ərzində artıq müəyyən bir ənənə formalaşıb. Biz forumu Azərbaycan uşaqları içərisindən yüksək liderlik qabiliyyətləri olan müxtəlif sahələr üzrə savadlı, bacarıqlı, ictimai həyata marağı olan uşaqların üzə çıxarılması və onların gələcək həyatına müəyyən istiqamətlər verilməsi üçün çox əhəmiyyətli platforma kimi qiymətləndiririk. Eyni zamanda bu forumlarda gündəlik həyatımıza daxil olan bir sıra aktual məsələlər uşaqlar tərəfindən müzakirə olunur. Onlar düşüncələrini, narazılıqlarını və istəklərini bildirirlər və onların fikri ümumiləşdirilərək forumun qəbul etdiyi sənədlərdə əksini tapır. Sonra isə bu qərarlarda, işlənilən dövlət və fəaliyyət planlarında, ayrı-ayrı layihələrdə nəzərə alınır. Bu baxımdan forumlar böyüklərin işini asanlaşdırır. Əlbəttə ki, onların istək və arzularının imkanlar çərçivəsində reallaşdırılmasına çalışırıq. Maraqlı və vacib məsələlər qaldırılır. Bu günə kimi uşaqların təklifləri əsasında bir sıra dövlət proqramları qəbul olunub və icra prosesindədir. Bugünkü forum da çox ciddi məsələlərə həsr olunur”.

”Regional İnkişaf” İctimai Birliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva da bu fikirdədir ki, uşaqların sağlam gələcəyi və sağlam inkişafı üçün onların özlərinin səsləndirdiyi fikirlər, təkliflər mütləq nəzərə alınmalıdır:

- Əvvəla bunu qeyd edim ki, Azərbaycanda uşaqlarla bağlı beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi onlara göstərilən diqqət və qayğının nümunəsidir. Uşaqlar üçün keyfiyyətli həyatın təmin olunmasında vacib məsələlərdən biri uşaq hüquqları sahəsində genişmiqyaslı işlərin aparılmasıdır. Görürük ki, iqlim dəyişikliyi, təhsil, psixologiya, sağlamlıqdan tutmuş bir sıra digər məsələlərdə uşaqlar öz səslərini ucaldır. Uşaq hüquqlarının qlobal problem olması pandemiyada bir daha üzə çıxdı. Uşaqların təhsil, səhiyyəyə çıxış imkanlarının azalması bu istiqamətlərdə çatışmazlıqlar olduğunu göstərdi. Çalışmalıyıq ki, hər bir uşağın təhsilə, səhiyyəyə çıxışı bərabərhüquqlu olsun. Forumun əsas üstünlüyü budur ki, uşaqların ictimai fəallığı artır, onlar özləri təşəbbüslərlə çıxış edir, təkliflər irəli sürürlər. Uşaqların irəli sürdüyü təkliflər mütləq nəzərə alınmalı, dövlət proqramlarına daxil edilməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Şagirdlərin məktəbə telefonla gəlməsinin qarşısını tam almışıq"

## Cənub bölgəsinin ən gənc məktəb direktoru “Şərq”ə maraqlı açıqlamalar verib

Aynurə Pənahqızı

**34 yaşı var, 26 yaşından Astarada Burzubənd kənd tam orta məktəb direktoru olaraq fəaliyyət göstərir. Yaşadığı bölgədə ən gənc məktəb direktoru kimi tarixə düşüb. Eyni zamanda vəzifəsini ləqayətlə yerinə yetirməyi və ixtisaslı kadrlar yetişdirməyi qarşısına əsas meyar qoyub. Cənub bölgəsinin ən gənc məktəb direktoru Turan Rəfiyev ”Şərq”ə müsahibə verib.**

**- Gənc məktəb direktoru olaraq təhsilin inkişafı üçün hansı tədbirləri həyata keçirmisiz, hansı çətinliklər var və gələcəkdə bu sahədə nə etməyi düşünürsünüz?**

- Gənc məktəb rəhbəri və təhsil işçisi olaraq məqsədimiz gələcəyimiz üçün ixtisaslı kadr, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Ona görə də çalışırıq ki, hər şeydən əvvəl şagirdlərə mükəmməl təhsil verək. Bununla yanaşı şagirdləri müasir dövrün tələblərinə uyğun yetişdirməyə çalışırıq. Əlimizdən gəldiyi qədər şagirdlərə texnoloji biliklər verir, onların kamil yetişməsinə səy göstəririk. Onların bu sahədə bacarıqlarının artırılmasına cəhd edirik. Eyni zamanda məktəb kollektivi olaraq zəif şagirdlərlə əlavə dərslər təşkil edirik. Məktəb olaraq əsas məqsədlərimizdən biri hər il ali məktəbə qəbul olan şagirdlərin sayını və nəticələrini yüksəltməkdir. Bunu da əminliklə deyə bilərəm ki, nail olmuşuq. Bundan əlavə Təhsil Nazirliyinin verdiyi ”Grand layihələr” üzərində işləməyə başlamışıq. Gələcəkdə ”Grand layihələr”in qalibi olmağı düşünürük.

**- Demək olar ki, əksər şagirdlərin üzərində telefon var. Hətta onların adına sosial şəbəkələrdə hesablar da var. Bu məsələylə bağlı fikirləriniz necədir?**

- Hazırda məktəb rəhbəri olaraq yaşadığımız əsas problemlərdən biri şagirdlərin sosial şəbəkələrə, internet oyunlarına marağının çox olmasıdır. Təhsil işçiləri olaraq şagirdlərin internetdən istifadə etməsinə qarşı deyilik. Müasir dövrün şagirdi internetdən araşdırma etməli, elmin, təhsilin yeniliklərindən agah olmalı, öz üzərində işləməlidir. Lakin çox zaman bunun əksi ilə qarşılaşırıq. Şagirdlər sosial şəbəkədən istifadə edir, gününün əksər hissəsini televiziya qarşısında internet oyunları ilə keçirir. Məyusedici amillərdən biri də odur ki, bu cür mənfi hallara valideynlər şərait yaradır. Ata, ana sosial şəbəkədə rahat vaxt keçirmək üçün bir telefon da uşağa verir. Bəzi valideynlər uşaqları ilə vaxt keçirmir, dərsləri ilə maraqlanmır. Bunun qarşısını almaq üçün məktəb olaraq mütəmadi valideyn iclasları keçirir və bu cür məsələləri əsas müzakirə obyektinə çevririk.

***"Təhsil işçiləri olaraq şagirdlərin internetdən istifadə etməsinə qarşı deyilik. Müasir dövrün şagirdi internetdən araşdırma etməli, elmin, təhsilin yeniliklərindən agah olmalı, öz üzərində işləməlidir. Lakin çox zaman bunun əksi ilə qarşılaşırıq"***

Şagirdlərin sadəcə dərsə maraq göstərməsi üçün həm rəhbər, həm müəllim, həm psixoloq olaraq məktəbimizdə kompleks şəkildə işlər görürük. Valideynləri valideynlər iclasında maarifləndiririk, onlara müəyyən istiqamətlər veririk. Bunu da qeyd edim ki, məktəbə şagirdlərin telefonla gəlməsinin qarşısını tam almışıq.

**- Cənub bölgəsində qızların təhsilə cəlbi hansı səviyyədədir?**

- Desəm ki, hazırda təhsilimizdə heç bir problem yoxdur, yalan danışmış olaram. Azərbaycan müstəqillik əldə etdiyi dövrdən ölkənin təhsil sistemində problem olub. Amma bu problemlərin miqyası zaman keçdikcə kiçilməyə başlayıb, indi erkən nikahların qarşısının alınması ilə bağlı xeyli işlər görülüb. Məktəbimizdə hər il ”erkən nikaha son” adı altında silsilə tədbirlər keçiririk. Fəsadları haqda məktəbin müəllimləri, psixoloqlar, hətta dəvət etdiyimiz həkimlər də fikirlərini bildirməklə bu problemi həll etməyə birgə çalışırıq. Erkən nikahla bağlı şagirdləri və hətta valideynləri belə valideynlər iclasında təlimatlandırmaq çox nəticə verib. Cənub bölgəsi artıq erkən nikahla tanınmır. Ucqar dağ kəndlərindən artıq çoxlu məzun qızlarımız müxtəlif ali təhsil ocaqlarına daxil olub və təhsilini davam etdirir. Hər il məktəbimizdən ali və orta ixtisas məktəblərinə daxil olan qızların sayı artır. Cari tədris ilində 20 məzundan 10 qız şagirdimiz idi, həmin şagirdlərdən ikisi ali, 4-ü orta ixtisas müəssisələrinə qəbul olunub.

**- Azərbaycanın bir ildə əldə etdiyi Zəfər tarixi, dərsliklərdə, xüsusən də tarix dərslərinin dəyişməsində nə kimi rol oynayacaq?**

- Növbəti ildən məktəblərdə ”Qarabağ tarixi” fənninin adı ”Qarabağın zəfər tarixi” adı altında IX sinif şagirdlərinə tədris olunacağı deyilir. Burada əsas məqsəd Qarabağ tarixini, müstəqilliyimizin ilk illərində onu niyə itirdiyimiz, uzunmüddətli danışıqlar prosesi, ən vacibi Azərbaycanın qazandığı zəfərin gənc nəslə çatdırılmasıdır. Bildiyim qədər, artıq bununla bağlı müəyyən addımlar atılıb və eyniadlı dərsliyin layihəsi hazırlanaraq hələ may ayından ekspertlərə təqdim olunub, müvafiq düzəliş və təkliflər müəlliflər qrupuna təqdim olunub. Bu dərsi də əvvəllərdə olduğu kimi tarix müəllimləri tədris edəcəklər ki, burada məqsəd şagirdlərə Vətən müharibəsi ilə bağlı ümumi mənzərəni göstərməkdir. Nəzərə alsaq ki, bu gün təlim-tərbiyə verdiyimiz yeniyetmə və gənclər sabahın Vətən müdafiəçiləridir, əminlik hissi ilə qeyd etmək olar ki, yeni nəslin vətənə sevgi, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması, Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək böyük gələcəyimiz naminə ən mühüm şərtlərdən biri kimi təhsilimizin qarşısında duran əsas vəzifədir. Ali Baş Komandanın 44 günlük Vətən müharibəsinin, şanlı qələbəmizin ali və orta məktəb proqramlarında, tarix dərsliklərində əks etdirilməsi ilə bağlı göstərişlərinin icrası istiqamətində artıq addımlar atılır. Bilirsiniz ki, əvvəllər VII və VIII siniflərdə Qarabağ tarixi adlı fakültativ dərslər keçirilirdi. İndi artıq gələn tədris ilindən IX siniflər üçün Qarabağın zəfər tarixi adlı fənn keçiləcək. ”Qarabağ tarixi” fənni artıq Qarabağın zəfər tarixi fənni ilə əvəzlənəcək. Biz Qarabağ müharibəsində şanlı zəfər qazanmışıq, torpaqlarımızı azad etmişik. Bu, dərsliklərdə olsa da, olmasa da biz hər dərs bunu şagirdlərə tədris edirik və edəcəyik də.

# Dünya yeni bilgilər istəyir

## ”Azərbaycanda bir sıra fənlər köhnəlib, fənlərin verdiyi informasiyalar da. Ona görə də mütləq şəkildə onlar yenilənməlidir”



**”Təhsil sisteminin kökündə duran məsələ dəyərlərin ötürülməsidir. Böyüklər tərəfindən həddən çox gözləntilərin olması ilə razıyam”. Bunu Təhsil naziri Emin Əmrullayev Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunda çıxışı zamanı deyib.**

Onun sözlərinə görə, valideynlər onların getdiyi məktəblə uşaqların getdiyi məktəblər arasında fərqlərin olduğunu qəbul etməlidirlər: ”Biz az sual veririk ki, uşaqlar nə istəyirlər. Ən vacib sual isə budur ki, 20-30 ildən sonra uşaqlara nə lazımdır. Fənn bilikləri ilə bağlı deyə bilərəm ki, fənlərin ayrı-ayrı tədrisi köhnəlib. Biz üzləşdiyimiz problemləri həll etdikdə kompleks düşünür, həyat təcrübəsini tətbiq edirik. Odur ki, biz müasir təhsildən danışırıqsa, metodik olaraq fənn bazasından layihə əsasında öyrənməyə keçməliyik. Artıq 190 mindən artıq uşaq rəqəmsal layihələrə qoşulub. Ümumiləşdirsək, təhsil sahəsində rəqəmsal və yeni müasir tədris metodlarından istifadəyə önəm verməliyik. Çünki həyat təcrübəsində fənlərin öyrətdiyi bacarıqların istifadəsi lazımdır”.

Nazir həmçinin qeyd edib ki, təhsil elə bir sahədir ki, burada hər rəyi nəzərə almaq mümkünsüzdür: ”İstər dərs yükü, istər tədrisin məzmunu öz-özlüyündə kifayət qədər dərin mövzudur”.

**Təhsil nazirinin məktəb reformaları ilə bağlı fikirlərinə münasibət bildirən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında qeyd edib ki, hazırda Azərbaycan təhsil sisteminin inteqrasiyası istiqamətində böyük işlər görülüb və uğurlar əldə edilib. Ekspertin sözlərinə görə, xüsusən Azərbaycanın orta məktəb şagirdlərinin beynəlxalq olimpiadada əldə etdiyi uğurlar, medallar kifayət qədər ölkə təhsil sisteminin artıq müasirləşdiyini göstərir:** ”Eyni zamanda biz müasir vərdişlərin Azərbaycanda tətbiq edilməsinin şahidiyik. Təbii ki, bu, ciddi uğurdur. Azərbaycan beynəlxalq qiymətləndirmələrdə kifayət qədər öndədir və biz bunun fonunda baxarıq ki, orta ümumtəhsil məktəblərimizdə istifadə edilən dərsliklərdə o qədər də ciddi bir dəyişiklik yoxdur. Hələ də 2001-ci illə 2021-ci il arasında eyni fənləri tədris edirik. Bir çox hallarda texniki və təbiət fənlərində o qədər də ciddi dəyişiklik yoxdur. Bu, təbii ki, narahat olunmalı bir məqamdır. Biz müasir dövrün tələblərinə uyğun olaraq, əmək bazarının çağırışlarına, eyni zamanda elmi-texnoloji yeniliklərə uyğun olaraq yeni fənləri daxil etməliyik, eyni zamanda da standartların dəyişilməsinə ehtiyac var. Təbii ki, dünya dəyişir. Təkcə 20 il ərzində texnologiya, elmi yanaşmalarda biz dünyada 180 dərəcə dəyişkənliyi müşahidə edirik. Ancaq bunun fonunda Azərbaycan məktəbində eyni fənlər, eyni dərslər, eyni yanaşmalar tətbiq olunur. Biz eyni şeyi öyrədib fərqli nəticələr əldə etmək istəyirik. Bu, mümkün deyil”.

**Ekspert hesab edir ki, yanaşmalarda da dəyişikliyə ehtiyac var:** ”Ümumilikdə fənlər və məktəbin rolunu müəyyən qədər fərdi öyrənməyə cəlb etməliyik. Yəni heç də şagird saatlarla sinifdə oturmaqla öyrənməyə cəlb edilməməlidir. Elə bir tədris sistemini təşkil etməliyik ki, şagirdlər evdə, yaxud da yolda gedərkən də öyrənsinlər. Əllərindəki alətlərdən belə informasiya məqsədli, öyrəncilik funksiyasını yerinə yetirən konpitensiyalar formalaşdırmalıyıq. Əslində, biz texniki və təbiət fənlərini birləşdirə bilərik. Yəni vahid dərslik də ola bilər. Türkiyə təhsil sistemində bu tətbiq olunur. Ona görə mən də razıyam ki, Azərbaycanda bir sıra fənlər köhnəlib, fənlərin verdiyi informasiyalar da. Ona görə də mütləq şəkildə onlar yenilənməlidir. Çünki dünya yeni bilgilər istəyir”.

Aynurə Pənahqızı



# Qazidən təklif...

## Biz də Türkiyə modelindən, təcrübəsindən istifadə edək

### “Qazilərlə bağlı əlillik dərəcələri üç yox, altı dərəcə olmalıdır”

**Əlillik dərəcəsinin müəyyənləşməsi indi ən çox müzakirə olunan mövzudur. Azərbaycanda əlillik dərəcələrinin verilməsi ilə bağlı ciddi narazılıqlar var. Əlilliyin qiymətləndirilməsi prosesi tibbi-sosial ekspert komissiyaları vasitəsilə həyata keçirilir. Ölkədə I, II və III dərəcə əlillik təminatı mövcuddur.**

**Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu əlillik dərəcələrinin müəyyən edilməsində Türkiyənin tətbiq etdiyi modeldən yararlanmaq təklifini irəli sürüb.** O, feysbuk səhifəsində yazdığı statusda deyib ki, Milli Məclisdə əlillik dərəcələri ilə bağlı məsələyə yenidən baxılsın: ”Türkiyədə qazilərə 6 əlillik dərəcəsi verilir. Yəni bütün yaralılara əlillik dərəcəsi müəyyənləşdirilir. Məsələn, birinci dərəcəli, iki, üç, dörd, beş, altıncı dərəcə... Məncə, Azərbaycan da qazilərlə bağlı bu addımı atmalıdır. Əlillik dərəcələri üç yox, altı dərəcə olmalıdır. Yəni döyüşdə yaralanmış bütün əsgər və zabitlərimizə yaralanma vəziyyətinə görə əlillik dərəcələri verilməlidir. Çıxış yolu budur! Yeri gəlmişkən, əgər ordumuz türk ordu sisteminə uyğunlaşdırılırsa, niyə əlillik dərəcələri və digər məsələlərdə uyğunlaşdırılmasın?”.

*Əlillik dərəcələrinin verilməsi ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov isə bildirib ki, indiki sistemin differensiallıq səviyyəsi aşağıdır:*

”30 faizədək fiziki məhdudiyyəti olan şəxslər əlil hesab edilmir. Digərləri üst dərəcələrdə - 60, 80, 80-100 faiz aralığında qruplaşdırılır. Nəzərə almaq lazımdır ki, 30 faiz ilə 60 faiz fiziki məhdudiyyətin olması eyni anlama gəlmir. Əmək bazarında problemlərə gətirib çıxarır. Hər qrup öz növbəsində üç hissəyə bölünməsini - aşağı, orta, yuxarı səviyyəli fiziki məhdudiyyətin itirilməsinə uyğun dərəcələrin müəyyənləşməsini təklif edirəm. Beləliklə, 9 sinif formalaşdırıla bilər. Gəlirlər, müavinətlər, təqaüdlər isə sözügedən 9 sinifdə əksini tapmaqla, təyin edilmiş əlillik dərəcəsinə uyğun ödənilsin. Yəni ödənişlər ilə qruplar arasında müsbət asılılıq yaradılsın”.

**Aygün Tahir**



# Metrodan istifadə edən sərnişinlərin sayı azalıb

**2021-ci ilin yanvar-oktyabr aylarında Bakıda metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 25,5 faiz azalaraq 55,6 milyon nəfər olub.**

Bu barədə Trend-ə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Ümumilikdə 2021-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanda sərnişin daşınması 5,9 faiz azalıb.

2021-ci ilin yanvar-oktyabr aylarında nəqliyyatçılar 959,7 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 93,9 faizi avtomobil nəqliyyatı, 5,8 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.

**Elan**

Cəfərova Sənəm Səfər qızının adına verilmiş Bakı şəhəri, Xətai rayon, Telnov küç. 23, 47/48 məhəllə, blok 8, mənzil 960 üçün verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Əhmədova Rəna İnqilab qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Binəqədi rayonu, 6-cı mikrorayon, İlqar Cümşüdov küçəsi, ev 15s-də yaşayan Məmmədov Cövdət Əlimərdan oğluna məxsus Xırdalan AAAF parkda yerləşən küçə 26, bina 1, mənzil 5-ə məxsus evin sənədləri itdiyi üçün etibarsız sayılır.

# Antisanitar şəraitdə ət satanlar vicdansızlardır

## Onların hamısını sahə müvəkkilləri bilir, qarşısını almalıdır

**Daxili İşlər Nazirliyi və Rayon İcra Hakimiyyətinin əməkdaşları Şamaxı rayonu ərazisində fəaliyyət göstərən qanunsuz heyvan kəsimi və ət satışı yerlərində reydlər keçirib. Reydlərin məqsədi antisanitar şəraitdə küçə və yol kənarlarında, həmçinin kəsim üçün nəzərdə tutulmayan yerlərdə qeyri-qanuni heyvan kəsimi fəaliyyətinin qarşısını almaqdır.**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) verilən məlumata əsasən, reydlər zamanı sanitar-gigiyenik norma və qaydalara əməl olunmadan heyvan kəsimi və ət satışının reallaşdırıldığı yerlər aşkar edilib.

Bundan başqa baytarlıq nəzarəti həyata keçirilmədən ət məhsullarının satışa çıxarıldığı məlum olub. Yerli icra orqanlarının əməkdaşları qida təhlükəsizliyi tələblərinə uyğun olmadan heyvan kəsimində istifadə edilən dəmir konstruksiyaları söküblər.

Həmçinin agentlik əməkdaşları kəsimlə məşğul olan şəxslərə öz fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun qurmaları və heyvan kəsimini mərkəzləşdirilmiş, müasir kəsim məntəqələrində həyata keçirmələri üçün zəruri məlumatlar veriblər.

Mövzu ilə bağlı ”Şərq”in suallarını cavablandıran Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev bildirib ki, hər birimiz azərbaycanlı, müsəlmanıq:

”Antisanitar vəziyyətdə kəsilən əti bizim ətrafımız, dostumuz, övladımız, valideynimiz istifadə edə bilər. Şəxsi vicdan deyilən bir anlayış var. Hər bir insanda vicdan olmalı və onu qarşısına qoyub fikirləşməlidir. Düşünməlidir ki, mənim bu qeyri-qanuni fəaliyyətim kimlərə nə kimi təsir göstərə bilər?”.



Ekspert vurğulayıb ki, sahə müvəkkillərində harada ət kəsilirsə, məlumat var: ”Bu halların qarşısını almaq sahə müvəkkillərinin səlahiyyəti səviyyəsindədir. Qeyri-qanuni, oğurluq kəsilən heyvan satmaq heç vaxt mümkün deyil. Yəni bu, məlum olan məsələdir. Onların əksəriyyəti bilir ki, qanunsuz yollarla heyvan kəsimi həyata keçirilir. Qanuni olaraq kəsim və satışın reallaşması üçün gigiyenik şərait lazımdır. Əks halda DİN də, İH də işə qarışacaq. Bunu edən varlıq insandır. Hər bir insanın da düşüncə tərzi var. Elə şəxslərin qanundankənar hərəkəti bunu deməyə əsas verir ki, onlar vicdansızdır”.

**Sücayət Mehti**


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu

KURSLAR

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com




# Azəbaycan neftinin qiyməti ucuzlaşacaq

## Dünya iqtisadiyyatının artım tempi get-gedə yavaşılamağa başlayıb

**”Azeri LT CIF” markalı xam neftin qiyməti 0,64 ABŞ dollar və ya 0,76 faiz azalıb. Nəticədə dünya bazarında Azərbaycan neftinin bir barelinin qiyməti 83,26 ABŞ dolları təşkil edib.**

Xatırladaq ki, ”Azeri Light” markalı neftin bir barelinin qiyməti ötən ilin aprel ayında minimal səviyyədə - 15,81 dollar olub. 2008-ci ilin iyulunda isə maksimum qiymətə - 149,66 dollara satılıb. Mövzu ilə bağlı ”Şərq”ə danışan Neft Araşdırmalar Fondunun rəhbəri, iqtisadçı İlham Şaban bildirib ki, hazırda neftin qiymətində 2 faizə yaxın azalma nümayiş olunub:

”İndiki mövqedə 80 ABŞ dolları 14 sentdir. Yəni 80 dollara yaxınlaşma var. Pandemiyadan sonra bazarda tələb çox oldu. OPEK-in məlumatına görə, artıq dekabr ayında analitiklər hesab edir ki, profisitlə üzləşmə ehtimalı var. İndiki müddətə qədər defisit olub. Çünki bazarda tələb çox idi. Dünya iqtisadiyyatının artım tempi get-gedə yavaşılamağa başlayıb. Nəticədə enerjiyə olan tələbat əvvəlki aylarla müqayisədə aşağı düşüb. İndiyə olan vəziyyət neftin qiymətinin azalmasında özünü nümayiş etdirəcək. Bu baxımdan da gələn ili nəzərə alsaq, həm ümumi qiymətdə, həm də birinci rübdə neftin qiymətlərinin hazırkı 80 həddən aşağı ticarət edilməsi ilə bağlı fikirlər bazarda daha çox səslənir. Bu fikirdən çıxış edib demək olar ki, Azərbaycan neftinin qiyməti ucuzlaşmaya doğru gedəcək”.

**Sücayət Mehti**

# Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı artıb

## Üç vacib amil insanları ölkəmizə gəlməyə vadar edir

**Cari ilin yanvar-sentyabr ayları ərzində daimi yaşamaq üçün Azərbaycana gələnlərin sayı açıqlanıb. Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1847 nəfər gələn, Azərbaycandan isə 355 nəfər gedən qeydə alınıb. Qeyd olunan müddət ərzində miqrasiya saldosu müsbət 1492 nəfər təşkil edib. Ötən illə müqayisədə daimi yaşamaq üçün Azərbaycana gələnlərin sayı artıb. Belə ki, ötən ilin eyni dövründə daimi yaşamaq üçün Azərbaycana 1241 nəfər gələn, Azərbaycandan isə 461 nəfər gedən qeydə alınıb.**



Məsələyə aydınlıq gətirən Dövlət Miqrasiya Xidməti (DMX) yanında İctimai Şuranın sədri Azər Allahverənov ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın bir çox sahələrində olan inkişaf insanları cəlb edir. Ekspertin sözlərinə görə, məhz bu səbəbdən də bir çox insanlar Azərbaycanda daimi yaşamaq üçün bura üz tuturlar: ”Ümumiyyətlə, 2008-ci ildən etibarən Azərbaycanda miqrasiya saldosu müsbətdir. Elə 2008-ci ildən etibarən də bu saldonun hər ildən-ilə artdığının biz şahidi oluruq. Ona görə də burada təəccüblü bir şey yoxdur. Sadəcə olaraq, 2020 və 2021-ci ilin göstəricilərindəki fərqdə miqrasiya saldosunun kifayət qədər yüksək olduğunu aşkar edirik. Bu, daha çox pandemiya ilə əlaqəli olan bir məsələdir. Bəllidir ki, keçən ildən etibarən Azərbaycanın qonşu ölkələrlə, quru torpaqlar üzərindən müəyyən güzəştlər tətbiq olunmağa başladı. Bu hardasa, miqrasiya proseslərinə bu və ya digər formada təsir elədi. Digər tərəfdən də ölkə ərazisinə daimi əsaslarla gəlmək məsələsinə gəldikdə isə bu da bilavasitə bununla bağlı olan bir məsələdir. Çünki faktiki olaraq, xarici ölkəyə səfər edənlər həmin ölkənin qanunvericiliyinə uyğun olaraq ölkəyə səfər edir. Pandemiya səbəbindən tək sərhədlər üzərində yox, eləcə də ölkələrdə məskunlaşmaq, müvəqqəti yaşayışa icazə verilməsi, əmək müqavilələrinin bağlanmasında da müəyyən məhdudiyyətlər tətbiq olunmağa başladı. Bu da nəticə etibarilə həmin ölkələrə gedən və orada daimi əsaslarla məskunlaşmaq istəyən insanların sayının azalmasına gətirib çıxardı. Amma Azərbaycana gəlib burada daimi əsaslarla yaşamaq istəyənlər təbii ki, bir qayda olaraq Azərbaycana gəlir və burada məskunlaşırlar. Eyni zamanda burada qanunvericilik də buna imkan verir. Ölkədə gəlib daimi yaşamaq icazəsi və ya müvəqqəti yaşamaq icazəsi alanlara elə sərt qadağalar tətbiq olunmur. Üçüncü amil isə burada istər-istəməz bu ölkənin iqtisadi inkişafı ilə bağlı olan amillərdir. Ümumiyyətlə, insanlar o ölkələrə üz tuturlar. Orada siyasi, iqtisadi, sosial cəhətdən kifayət qədər sabitlik mövcuddur. Orada insanlar çox rahat şəkildə öz gələcəyini qura bilirlər. Bu baxımdan da Azərbaycanda bu istiqamətdə bir çox müsbət dəyişikliklər var. Həmçinin, faktiki olaraq Azərbaycanda bir çox sahələrdə inkişaf var, buna görə də insanlar Azərbaycana üz tuturlar və burada daimi əsaslarla yaşamağa dair öz niyyətlərini bildirirlər”.

**Aynurə Pənahqızı**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2334



## Bill Geyts dəqiq tarixi açıqladı

### Koronavirus 2022-nin ortalarında bitəcək

**"COVİD-19"un taleyi artıq bu şəxsə "bağlı" görünür. Hamıdan, hər kəsdən çox dünya məhz onun açıqlamalarını gözləyir.**

Bill Geyts - koronavirus açıqlamaları ilə yenə təəccübləndirməyi bacarıb. Və dünya əhalisinin həsrətlə gözlədiyi xəbəri verib: koronavirus 2022-nin ortalarında bitəcək. B.Geytsin 2015-ci ildə səsləndirdiyi "pandemiyalara hazır deyilik" fikri 2019-dan bu yana təsdiqini tapdığı üçün hər kəs onun proqnozlarına inanır. B.Geyts növbəti açıqlamasında koronavirusun bitəcəyi tarixi açıqlayaraq deyib ki, pandemiya 2022-ci ilin ortalarından etibarən sönməyə doğru gedəcək, ölüm və yoluxma faizləri hiss ediləcək səviyyədə aşağı düşəcək. Geyts 2022-ci ildə koronavirusun təhlükəli variantlarının ortaya çıxacağına inanmadığını, koronavirusun artıq mövsümü qrip səviyyəsinə enəcəyini deyib. B.Geyts koronavirusa qarşı immunitet yaranması üçün peyvəndlərlə yanaşı dərmanların da istehsal edildiyini bildirib: "Peyvənd və dərmanlar sayəsində ölüm hallarının çox aşağı səviyyədə olacağını təxmin edirəm". Həmçinin B. Geyts vurğulayıb ki, dünya gələcəkdə yeni pandemiya təhdidlərinin qarşısını almaq üçün qrip virusunun ortadan qaldırılmasına çalışmalıdır.

**Məlahət**

## Hamilə jurnalist koronavirusdan öldü

### Aygün Əlizadənin beş yaşlı övladı qalıb



**Press.az saytının əməkdaşı Aygün Əlizadə koronavirusdan vəfat edib.**

Modern.az xəbər verir ki, Aygün Əlizadə oktyabrın 30-da koronavirusa yoluxub.

O, hamilə olduğu üçün virus əleyhinə iynə və dərmanlardan tam istifadə edə bilməyib.

Noyabrın 8-də onu Yevlax Rayon Xəstəxanasından təcili yardım avtomobili ilə 1 saylı Kliniki Tibbi Mərkəzə gətiriblər. Xəstəxanaya daxil olduqda Aygün Əlizadənin vəziyyəti olduqca ağır qiymətləndirilib və o, xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib, köməkçi tənəffüs aparatına qoşulub. Noyabrın 16-da 29 yaşlı Aygün Əlizadə doğulmamış körpəsi ilə birgə vəfat edib.

*Qeyd edək ki, mərhumun beş yaşlı övladı qalıb.*





# "İntiqamımı alacam!"

### O dağlarda əvvəl anasını, sonra da qardaşını itirib





**Məlahət Rzayeva**

**Dağlar ondan əvvəlcə anasını, sonra da qardaşını aldı. Anası da, qardaşı da alpinist idi. Kate də qəti qərar verdi: onların intiqamını sizdən alacağam! Və Katenin zirvəyə yürüşü başladı. "Şərq" "Milliyyet.com"a istinadən qadın alpinistin qarlı Himalay zirvəsiylə mücadilədə keçən həyat hekayəsini sizə təqdim edir.**

Qardaşının izlərini təqib etmək üçün Himalaya doğru səfər çıxıb. Yaşadığı böyük faciəyə rəğmən həyata sıx-sıx sarılıb. Anası və qardaşının yarımçıq hekayəsini o tamamlayacaq.

Kate və qardaşı Tom Ballard uşaq ikən vadilərdə dolaşmağı sevərdilər. Dağçılıq onların genində varmış. Onlar dünyada məşhur ingilis qadın alpinist Alison Hargreavesin övladlarıydı. Ətlə dırnaq kimiydilər. Biri-birlərindən heç ayrılmazdılar. Uşaq yaşlarında alpinizmlə maraqlanırdılar. Dağ onlar üçün ailə ənənəsi idi. İlk alpinist çəkmələrini də ibtidai sinifdə oxuyarkən almışdılar. Yetkinlik yaşına çatdıqda bu ailə ənənəsini davam etdirməyi qərara aldılar. Anaları Alison 1995-ci ildə alpinizm tarixinə adını "qızıl hərflər"lə yazdırdı. Alison Everestə - Comolunqma zirvəsinə təkbaşına, oksigen balonsuz dırmanan ilk qadın alpinist oldu. Bu tarixin üzərindən 3 ay keçdikdən sonra Alison qarşısına daha bir hədəf qoyur: dünyanın ən yüksək 3 zirvəsinə ardıcıl, fasiləsiz dırmanmaq. Bununla o, zəfərini unudulmaz etmək istəyirdi. Lakin tale - dağlar bu dəfə üzünə gülmədi. Alison Pakistan-Çin sərhədindəki K2 dağına dırmanarkən şiddətli tufana düşür. Zirvəni görən Alison bir neçə saat sonra gözdən itir. Ondan geriyə qanlı jilet, əşyalar və çəkməsi qalır. 33 yaşlı Alisonun cəsədi isə tapılmadı... Alisonu dağlar "udarkən" oğlu Tom 6, qızı Kate isə 4 yaşındaydı. Anaları dağda tələf olsa da, bu, onların dağçılığa olan sevgilərini azaltmadı. Dağlardan küsmədilər. Əksinə, hər ikisi alpinist olmağa qərar verdilər. Kate Ballard İsveçrəyə köçür və orada qar idmanı üzrə müəllimliyə başlayır. Katenin qardaşı Tom Ballard isə alpinizmdə uğurlara imza atdı. 26 yaşlı Tom 2015-ci ildə Alp dağlarının şimal yamaclarındakı 6 zirvəyə təkbaşına dırmanan ilk alpinist oldu. Bu uğurundan sonra o da anası kimi üzünü Himalaya çevirdi. Və anasının yarımçıq qoyduğu hekayəni tamamlamaq istədi. Lakin Himalay indi də onu "ağuşuna" aldı. Tom anası Alisonun gözdən itdiyi ərazidən 160 kilometr aralı məsafədə itkin düşüb. Onun da cəsədi hələ tapılmayıb. Kate bu dəfə də qardaş itkisinin acısını yaşadı. Kate özü və qardaşı haqqında "biz dağların övladlarıyıq, qardaşım məndən də cəsarətli idi" deyir. İndi də Kate ailənin yarımçıq hekayəsini tamamlamaq qərarına gəlib. Həyatının çox önəmli səfərinə hazırlaşır. Hədəfi Himalay dağlarıdır. Bu həm də ana və qardaşın xatirəsinə bir yürüş olacaq. Kate "qardaşımın cəsədi tapılmayanadək o, mənim üçün ölməyib. Sağdır, yaşayır. Yaşanmalı olan mütləq yaşanır. Bizdən daha güclü olan bizi almaq istəyirsə, buna qarşı dayanmaq mümkün deyil. Ona görə də yaşanan hər hansı faciəyə rəğmən həyata davam etmək lazımdır", deyir.

## Pələng yaşayış məkanında göründü

### Hadisə yerli sakinlər arasında təşviş yaradıb



**Meksikanın Tapalpa şəhərində avtomobil yolunun kənarında görünən Benqal pələngi sürücülərin təəccübünə səbəb olub.**

**Oxu.az xəbər verir ki, yoldan keçən sürücülər pələngin görüntülər mobil telefonlarına çəkərək sosial şəbəkələrdə ictimailəşdiriblər.**

***Qeyd edək ki, Benqal pələnginə əsasən Hindistanda, Banqladeşdə, Nepalda rast gəlinir. Pələngin bu növünün Meksikada görünməsi yerli sakinlər üçün yenilik hesab olunur.***

## İtlər öz sahiblərinə videozəng edəcək

### Amma bunun üçün internet rabitəsi lazım olacaq



**Şotlandiyanın Qlazqo universitetində itlər üçün xüsusi telefon hazırlanıb.**

**Oxu.az xəbər verir ki, "DogPhone" adlanan cihaz vasitəsilə dördayaqlılar öz sahiblərinə videozəng edə biləcək. Düzdür, bunun üçün internet rabitəsi lazım olacaq.**

***Qeyd edək ki, telefon sahibi işdə olarkən evdə tək qalan heyvanlar üçün yaradılıb.***



## Etirafları heyrət doğurdu

### 7 aylıq körpənin ölümünə diplomsuz "tibb bacısı" səbəb olub

**Məlahət Rzayeva**

**7 aylıq körpənin ölümünə səbəb olan tibb bacısını 8 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir. Tibb bacısının məhkəmədə qandondurucu etirafları isə eşidənləri dəhşətə gətirib.**

"Şərq" "ahaber.com.tr"yə istinadən bildirir ki, Səma və Əmir Şahin cütlüyünün 7 aylıq körpəsi Əli Əmir 2019-cu ilin avqustunda İstanbuldakı özəl xəstəxanalardan birinə aparılıb. Körpə müalicə olunduğu xəstəxanada vəfat etməsindən sonra faktla bağlı cinayət işi açılmış və istintaq başlamışdı. İstintaqın gedişində Türkiyə Səhiyyə Bakanlığı prosesə qoşularaq xəstəxananın baş həkimi Hakan Hasdemir, əmək fəaliyyəti izni olmadan Uşaq Xəstəlikləri üzrə həkim Barış Y. nin möhürü ilə arayış tərtib edib müayinə və müalicə ilə məşğul olan Ramina Rzayeva haqqında 2 ildən 8 ilə qədər həbs cəzası tələb edib. Kiçikçəkməcə Cümhuriyyət Başsabcılığı (prokurorluğu) tərəfindən aparılan istintaq işi üzrə 26-cı Əsliyə Cəza Məhkəməsində məhkəmə prosesi başlayıb. Prosesdə şahid qismində ifadə verən tibb bacısı P.Y. heyrət doğuran açıqlamalar səsləndirib. Bildirib ki, Raminanın tibb üzrə diplomu olub-olmadığından xəbərsizdir. O, tibb bacısına körpənin müalicəsinin ilk işi olduğunu deyib. Analizlər alınıb, ağ ciyərlər rentgen edilib, körpədən qan alınıb, damar yolları açılıb, müalicəyə başlanıb. Tibb bacısı körpəyə təyin edilən dərmanların dozasının dərmanların göstərildiyi sistemdə yüksək yazıldığını görüb, aptekə telefon açaraq dərmanların dozasının yüksək olduğunu deyib, onlar da düzəliş ediblər. Sistemdə dərmanların dozasına düzəliş edildiyndən tibb bacısı təkrar yoxlama aparmadan körpəyə dərman verib. Belə çıxır ki, körpəyə dərmanlar əvvəlki doza ilə verilib. Yəni, yüksək dozada. Tibb bacısı "mən bunu körpə öldükdən sonra öyrəndim", deyib. Sistem qoşulduqdan sonra körpənin halı pisləşib, ağlamağa başlayıb. Tibb bacısı həkimi çağırıb, həkim körpəyə "Parasitomol" içirib. Körpənin vəziyyəti bir qədər yüngülləşib, təkrar seruma qoşulunca yenə ağlamağa başlayıb. Tibb bacısı bu dəfə "mavi kod" siqnalı verib. Lakin körpə həyata vida edib. Tibb bacısının ifadəsindən sonra məhkəmə prosesi fevral ayınadək təxirə salıb.

7 aylıq Əli Əmir ötən Qurban bayramının 3-cü günü torpağa tapşırılıb. Körpənin anası "İl yarımdır ki, körpəmin ölümünə səbəb olanların cəzalandırılmasını gözləyirəm. Cənnət quşum getdi. Başqa körpələrin canı yanmasın, analarının qəlbi dağlanmasın deyə, savadsız, məsuliyyətsiz həkimlərin cəzalanmasının istəyirəm", söyləyib. Qeyd edilir ki, valideynləri körpəni hərarət və öskürək şikayəti ilə xəstəxanaya aparıb. Müayinə zamanı körpəyə yuxarı tənəffüs yolları infeksiyası diaqnozu qoyulub, həkim valideynlərə tənəffüs yollarına mikrob düşdüyünü deyib. Müalicə təyin edib. 2 gün sonra körpəni təkrar xəstəxanaya apardıqda isə həkimin icazəli olduğu deyilib, körpənin müyinəsini həkim Ramina Rzayeva icra edib. Bu həkiminsə icazəsiz çalışdığı sonradan məlum olub. Serum qoşulan körpə isə bir daha oyanmayıb.

## Ailəsi məhv oldu

### 7 yaşlı uşaq peçenyedən boğularaq ölüb

**Məlahət Rzayeva**



**Adanada 7 yaşlı Muzaffər Gül faciəli şəkildə vəfat edib. Uşaq evdə mobil telefonda video izləyərkən bir tərəfdən də peçenye yeyirmiş. Peçenye uşağın nəfəs borusuna "qaçıb". Uşaq boğularaq yerə yıxılıb.**

"Şərq" "ahaber.com"a istinadən xəbər verir ki, hadisə axşam saatlarında baş veirb. Ailə üzvlərinin hamısı evdə olub. Muzaffər anasının mobil telefonunu götürüb video izləməyə başlayıb. Kresloda əyləşmiş uşaq qəfil yerə yıxılıb, çabalamağa başlayıb. Atası Aykut Gülu uşağın yerdə hərəkətsiz qaldığını görüb. Uşağı maşına qoyaraq təcili yaxınlıqdakı xəstəxanaya çatdırıblar. Lakin göstərilən yardıma baxmayaraq uşağın həyatını xilas etmək mümkün olmayıb. Kiçik Muzaffərin cansız bədəni tibbi ekspertiza üçün Adana Ədli Tibb Qurumunun morquna aparılıb. Hadisə ilə bağlı istintaq başlayıb. Ekspertizadan sonra uşağın cənazəsi ailəsinə təslim edilib və Qızılqaş Məhəllə Məzarlığında torpağa tapşırılıb. Atası Aykut Gül deyib ki, Muzaffər bir əlində telefon, bir əlində isə çubuq peçenye tutaraq video izləyir və gülürmüş. Bir anda telefon əlindən yerə düşüb, uşaq özü də kreslodan yıxılıb: "Xəstəxanaya çatdırdıq, amma olmadı..." Muzaffər Güldən valideynlərinə qalan xatirəsə noyabrın 10-u çəkilən sonuncu fotosudur.



**P.S. Uşaqlara nəinki peçenye və sair, hətta yemək verərkən də ehtiyatlı olmaq gərəkdir. Yemək yeyərkən, su içərkən danışmaq, gülmək, atlanıb-düşmək qarşısı alınmayan faciələrə səbəb olur. Yemək qırıntısı, bəzən hətta adi su damcısı da nəfəs borusuna düşərək ciyərlərə hava axınının qarşısını ala bilir.**